**“YAZARLAR” jurnalı N: 02 (02)**
*Fevral - 2021*

**Təsisçi və Baş redaktor**
Zaur Ustac

**Redaksiya heyəti**
Ayətxan Ziyad (İsgəndərov)
Aydın Xan Əbilov
Vüqar Əhməd
İradə Aytel
Qılman İman
Təranə Məmməd
Adil Cəfakeş
Pərvanə Bayramqızı
Kamal Camalov
Leyla Oruc
Faruk Habiboğlu
Adilə Nəzər
Sadıq Qarayev
Aysel Nazim
Təvəkkül Goruslu
Əsmər Hüseyn Xan
Rahim Üçoğlanlı
Ülkər Nicatlı
Şahnaz Şahin
Əjdər Əlizadə
Təranə Arifqızı
Mayıl Dostu
Gülşən Mustafa
Mövlud Ağamməd
Nərgiz Mirzəyeva

**Texniki redaktor**
Tuncay Şəhrili

**Məsul katib**
Araz Şəhril

# BU SAYDA YER ALAN YAZARLAR:


Zaur Ustac -3.


Ayətxan Ziyad – 5


Aydın Xan -21


Faruk Habiboğlu - 39


Kamal Camalov - 43


Araz Şəhrili - 52


İmran Nuri -55


Aysel Nazim - 66

Jurnal sosial-ictimai yönümlü **“TƏRƏFSİZ ƏDƏBİYYAT TARİXDİR!”** layihəsi çərçivəsində ödənişsiz əsaslarla nəşr olunur. Qiyməti: Pulsuz

**∑ = 70 səh.** **Çapa imzalanıb: 05.02.2021.**



**Zaur Ustac**

# BAŞ REDAKTORDAN

Salam olsun, çox dəyərli oxucum! Böyük Allahın izni ilə sizlərlə növbəti görüşə gəldik. Öncə onu qeyd edim ki, bu fevral ilk dəfə olaraq, ağzımızı açıb söz deməyə utanmırıq. Beləki, fəaliyyətdə olduğumuz bütün müddət ərzində həmişə yanvarın son günləri fevral ayı üçün Xocalı barədə paylaşım edib (adətən Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov haqqında olan "Oriyentir Ulduzu" povestini də paylaşırdıq...), ay boyunca susur, bir də mart ayında fəaliyyətə başlayırdıq. Bu gün cənab Ali Baş Komandan, möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun qazandığı zəfər sayəsində üzü ağ, alnı açıq öz işimizlə məşğul ola bilirik... Söz deməkdən utanmırıq. İndi vuruşduğu cəbhədən asılı olmayaraq bütün ölkəmizin yurdsevər vətəndaşları özlərini müzəffər ordunun şanlı əsgəri hesab edir. Bu barədə qələmə aldığım ən yeni şeirlərdən birini sizlərə təqdim edir və sözü digər qələmdaşlara ötürürəm. İnşallah növbəti saylarda görüşənə qədər:

**USTACAM**

Müzəffər ordunun şanlı əsgəri,
Ərənlər yurdunun ər övladıyam!
Zalımın zülmünə təhəmmülüm yox,
Babəklər yurdunun hürr övladıyam!
* * *
Ustadım Nəsimi, sözümüz sözdü,
Ədalət, həqiqət bağrımda közdü,
Ziyadar dühası bir deyil, yüzdü,
Mövlalar yurdunun nur övladıyam!

* * *
Dərvişəm, müqqəddəs sayılır təkkəm,
Hülqumdan yuxarı dayanır öfkəm,
Od, ocaq diyarı tanınır ölkəm,
Alovlar yurdunun nar övladıyam!
* * *
Unutma, şah babam Xətai başdı,
Nadir şah, mətədə tərpənməz daşdı,
İlham, nə keçilməz sədləri aşdı,
İgidlər yurdunun nər övladıyam!
* * *
Tarixdə Nəbisi, Koroğlusu var,
Gen dünya yağıya daim olub dar,
Düşmən qarşımızda yenə oldu xar,
Aslanlar yurdunun şir övladıyam!
* * *
Göydən Yer üzünə ərmağan, payam,
Gündüzlər Günəşəm, gecələr Ayam,
Ən parlaq ulduzdan törəyən boyam,
Ozanlar yurdunun sirr övladıyam!
* * *
Ustacam, vətənim vətən içində,
Axıb duruluruq zaman köçündə,
Min bir anlamı var, adi "heç"in də,
Aqillər yurdunun pir övladıyam

**Zaur Ustac**
*Şair – publicist,*
*"Yazarlar" jurnalının baş redaktoru.*



**Ayətxan Ziyad**

# ZAUR USTACIN ŞEİRLƏRİNDƏ

# UŞAQ OBRAZLARI

(“Sətirlərdə uşaq obrazları” bölümü

(*“Gülüzənin şeirləri” kitabından*) tədqiqat müstəvisində)

**Elmi rəhbər:**

Ramazan Qafarlı,

filologiya üzrə elmlər doktoru, professor

**GİRİŞ:** Uşaq ömrü öz dəcəlliyi, ərköyünlüyü, yaşının kiçik illərində bizi “əsəbiləşdirdiyi” məqamları ilə zaman ötdükscə şirinləşib əz əziz xatirəyə çevrilib yaddaşlara həkk olan bir dünyadır. Artıq baba, nənə olduğumuz illərdə övladımızın körpə yaşlarında “başımıza açdığı oyunlara”indiki günlərimizdə

bir az bal-şəkər şirinliyi, bir az da məzə qatıb danışıb-gülür, həzz alır, xoşlanırıq.

Məsələn, qəfil yadımıza düşə bilər ki... Oğlumla dostlaşmış iki sərçə vardı, hansı ki adına “Babəkin sərçələri” deyirdik. Oğlum eyvana çıxdımı, sərçələr əvvəlcə onun çiyinlərinə qonar, sonra qollarının üstü ilə yeriyə-yeriyə gəlib ovcundakı çörək qırıntılarından birini götürüb “pırr” edib havaya qalxardılar. Bu hal Babəkin ovcundakı çörək qırıntıları qurtarana qədər davam edərdi.

Yaxşı dil açmadığı vaxtlardı. Bir də görürdün gözləri sevincdən parıldaya-parıldaya nəyi isə göstərirdi: “Bax, çənbərənin yanında çepin üstündə mətənək donub”. Pəncərənin yanındakı çöpün üstünə kəpənək qonduğunu bizə belə başa salırdı.

Yaxud, ilk dəfə işıqforun işığının yanıb-sönməsini görəndən sonra nəinki işıqforun, evdəki lampaların da yanıb-sönməsi onun üçün “danq” kəlməsilə ifadə olunurdu. Deyək ki demək istəyirdi ki, “lampanı yandırın”. Bu fikrini belə ifadə edirdi: “danq”. “Lampanı söndürün” tələbi də onun üçün “danq” idi.

Olurdu ki, mənzilin girişindəki lampa unudulub söndürülməyib. Mənzilin girişində qoyulmuş şkafın sol qapısını açıb ustufca divara çırpırdı. Və qürurla bizə baxırdı: “danq”. Yəni ki, gördüz, işığı söndürdüm.

O illərdən 40 ilə qədər zaman ötüb. İndi nəvələrimdə bunabənzər şirinlikləri müşahidə edəndə, 40 il əvvəl oğlumda gördüklərimiz yada düşür və bu xatiratları xatırlayıb ürək dolusu həzz alırıq.

**ARAŞDIRMA:** Z.Ustacın yeni təqdimatda və yeni tərtibatda işıq üzü görən "Gülüzənin şeirləri"ndəki "Sətirlərdə uşaq obrazları" bölümünə [4. s.83-96] daxil edilən şeirlər də beləcə real həyat hadisələrindən qələmə alınan əsərlər, bu əsərlərin qəhrəmanları isə özlüyündə müxtəlif xarakter bilməcələrilə yaddaşlara hopası təxminən bir-birinin eyni olan oxşar təbiətli azyaşlılardır. Biri sadəlövh, digəri çoxbilmiş, üçüncüsü yox yerdən dava qoparan, sonrakı nəfsinə yiyəlik etməyi bacarmayan... Fakt olanı isə budur ki, onların hər biri həyatdan bizlərə tanışdır, adını xatırlaya bilmədiyimiz haçanca "qarşılaşdığımız" uşaqlardan biridir.

Məsələn, Etibarla Ehtiram bir-birini başa düşən, bir-birilə hesablaşan uşaqlardır. Hansı işi necə yerinə yetirmək lazımdırsa, hər ikisi eyni düşüncədə olur. Belə ki, qaranquşların hansı səbəbdən görünmədiklərindən anlaqsız olan uşaqlar havaların soyumasından, qarlı-şaxtalı günlərdə quşların ac qala, yaxud xəstələnə biləcəklərindən narahatdırlar. Odur elan yazıb divara yağışdırırlar ki, kim qaranquşların yerini bilirsə, onlara desin:

Etibarla Ehtiram

Yazdılar belə elan:

“Qaranquşlar itibdir,

Varmı xəbəri olan?”

(“Etibar və Ehtiram”)

Şeiri oxuyan hər hansı azyaşlı elə o andaca özünə sual edir ki, görəsən quşlar niyə qəfil yoxa çıxıblar? Təbii ki, uşaq (burada, Etibarla Ehtiram) sualı cavablandırmaq imkanında olsaydılar, qaranquşları elan vasitəsilə axtarmaq məcburiyətində qalmazdılar. Sualın cavabı müəllim, yaxud valideyn tərəfindən aydınlaşdırılır. Məlum olur ki, quşların başında heç bir qəzavü-qədər yoxdur, onlar itməyiblər, sadəcə havalar soyuduğundan uçub isti ölkələrə gediblər, qaranquşların təbiəti belədir, onlar bu xislətdədirlər.

Belə olan halda “o hansı quşdur ki, yaşadığı yeri heç vaxt tərk etmir” sualı meydana çıxa bilir. Sualın cavablandırılması məktəbliyə əlavə bilgi vermək şansı yaradır. Azyaşlı müəlliminin, yaxud valideynin köməyilə öyrənir ki, sən demə havalar soyuyanda yaşadığı yeri tərk etməyən quş da varmış və bu quşun adı sərçədir

Müəllif Etibar və Ehtiram obrazlarını yaratmaqla eyni zamanda bəzi dəcəl uşaqlara onu da başa salmaq istəyir ki, quşları sevmək, onlara qarşı qayğıkeş olmaq lazımdır.

Balaca qəhrəmanlar öz saflıqları, səmimiyyətləri ilə bir-birlərinə bənzər olduqları kimi, fərqlilikləri də var. Məhz bu və bunabənzər xarakterə malik olmaqlarıdır əsəri oxucuya sevdirən, gündəmdə qalmasına yardımçı olan, yoruculuq, usanmaq kimi bir haldan oxucunun yaxasını qurtaran. Bu isə xüsusilə uşaq ədəbiyyatı üçün vacib şərtlərdəndir.

Məsələn,

Jalə, Damla və Şəbnəm

Yola getmirdi heç vaxt.

Bir gün Yağmur dillənib,

Hamısını qoydu mat.

("Jalə, Damla, Şəbnəm və Yağmur")

Yaxud, Zümrüdlə Zamin  heç vəhclə yola getmirlər. Problem isə Zümrüdün hərisliyindədir, gözü hər gördüyündən kirə istəyir. Hər dəfə də onların mübahisəsini n üstünə su səpmək, yoluna qoymaq Zəhranın öhdəsinə düşür:

Zanbağı görən kimi,

Zümrüd  dedi Zaminə,

Paxıl deyilsən əgər,

Zanbağını ver mənə.

Zəhra qarışdı işə,

Sonra dedi, bu qədər

Tənbəl deyilsən əgər,

Zəhmət çək, özün becər!

("Zümrüd, Zamin və Zəhra")

Mirzə İbrahimovun "Sənət, sənətkar və zəmanə" məqaləsində yazdığı kimi. obraz real həyat hadisələrinə əsasən yaranır, "həmişə təbiətin, varlığın, canlı insanın bədii inikasıdır, onun əsas, tipik xüsusiyyətlərini saxlamaqla həm mənasını, həm də formasını doğru əks etdirir" [3. s.74]. Bu fikri bir qədər başqa tərzdə ifadə edən Xalid Əlimirzəyevə görə, "Yazıçının şəxsiyyəti, əqli mühakimələri və mənəvi dünyası onun yaratdığı obrazların, xarakterlərin ruhuna, varlığına hopur. Bu obrazlar ictimai varlığı, həyat həqiqətini əks etdirməklə bərabər, həm də sənətkarın zəkasının, dünyagörüşünün, ictimai ideal və amalının, vətəndaşlıq mövqeyinin, milli bəşəri duyğularının süzgəcindən keçərək formalaşır, onun dühasının, bədii təxəllüyünün işığında canlanır, həyata vəsiqə alır" [1. s.17].

Bölümə uşaq obrazlarına aidliyi yetən 28 şeir daxil edilib. Ancaq bu o demək deyil ki, "Sətirlərdə uşaq obrazları"nın qəhrəmanları cəmi 28 nəfərdir, xeyr. Elə şeir var onda iki, bəzən üç obrazla qarşılaşırıq. X.Əlimirzəyevin yazdığı kimi, yazıçı şəxsiyyətinin, əqli mühakiməsinin və mənəvi dünyasının məhsulu olan bu ədəbi qəhrəmanlar arasında təbiət etibarı ilə

bir-birinin oxşarı olub bir-birilə yola gedənlər də var, xaraktercə bir-birindən fərqli olanlar da. Ancaq başlıca məziyyət bundadır ki, bu "İnsan xarakterlərinə, ehtiraslarına, fikir və arzularına biz hər şeydən qabaq həyatda rast gəlirik" [3. s.76].

Məsələn, "Vahid" şeiri I Qarabağ müharibəsində şəhadət zirvəsinə ucalmış Vahid Abbasovun xatirəsinə həsr olunub. Cəmi dörd misradan ibarət şeirdə müəllif qətiyyətli, sözünün sahibi, vətənpərvər bir Azərbaycan övladının obrazını yaratmağa müvəffəq olub. Azərbaycanlı xarakterinə sahib kişi obrazı,

Vahid getdi əsgərə,

Həmişə dedi: - "Oldu!"

Postunu tərk etmədi,

Vətənçün şəhid oldu.

Əsərdə ""Vahid" adı hansı hərflə başlayır", "V" hərfi ilə başlayan daha hansı insan adı bilirsiniz", "Əsgər niyə həmişə "Oldu!" deyə cavab verməlidir", "Vahid Abbasov kimdir, kimlərlə döyüşdə və hansı cəbhədə şəhid olub", "Şəhid olmaq nə deməkdir və kimlərə "şəhid" deyilir", "Vətən uğrunda şəhid olan hansı Milli Qəhrəmanlarımızı tanıyırsınız" sualları qoyulmaqla şagirddə düşünmək qabiliyyəti formalaşdırmaq və onun əlavə bilgi əldə etməsi üçün tələbat doğuran şərait yaradılmış olur.

Yetişməkdə olan nəsildə vətənpərvərlik duyğuları aşılayan başqa bir şeir isə “Ömər və Əsmər” adlanır. Şeirdə vətənpərlik və vətəndaşlıq duyğularının Ömərin qanında-canında olduğu diqqətə çatdırılır:

Söhbət edirdi,

Ömərlə Əsmər.

Ömər dedi ki,

Olacaq əsgər!

Yetişməkdə olan nəsildə vətənsevərlik duyğularının aşılanmasını qarşıya məqsəd qoyan müəllif yeniyetməyə aşağıdakı sualları ünvanlayıb: “Səncə əsgər olmaq nə deməkdir”, “Sən böyüyəndə kim olacaqsan?”

Azyaşlıya bu kimi duyğuların ruhən hakim kəsilməsi üçün əsgərlərin orduda istifadə etdiyi və uşaqlara da oyunlardan, cizgi filimlərindən, filimlərdən tanış olan “tapança”, “tank” kimi vasitələrdən bəhrələnilir.

Natiq tutdu Tofiqi,

Əlində tapançası.

Tofiq təslim olmuşdu,

Yer yox idi qaçası.

(“Natiq və Tofiq”)

Yaxud,

Tuncay topu tulladı,
Tutu, topu tut görək!
Top-top mənə yaraşmaz,
Mən tankçı olum gərək!

("Tuncay")

"Sətirlərdə uşaq obrazları" bölümünə daxil edilən şeirlər üç yarımsərlövhə altında qruplaşdırılıb: 1 – "Bir ad bir şeir"; 2 - "İki və daha artıq şəxs adına ünvanlanan şeirlər; 3 – "Tam və bitkin şeirlər".

"Bir ad bir şeir" yarımbaşlığı altında 16 şeir *("Tuncay", "Nağı", "Yusif", "Leyla", "Raul", "Rəna", "Malik", "Qaşay"...*), "İki və daha artıq şəxs adına ünvanlanan şeirlər"də 9 şeir (*"Natiq və Tofiq", "Rahib və Əkbər", "Fuad və Fərid", "Jalə, Damla, Şəbnəm və Yağmur"...*), "Tam və bitkin şeirlər"də isə 3 şeir (*"Ağıllı Gülər", "Oyanın, bahar gəlib", "Balaca reklamçı"*) daxil edilmişdir.

"Bir ad bir şeir" və "İki və daha artıq şəxs adına ünvanlanan şeirlər" bölgülərinə uşaq adlarına yazılan şeirlər daxil edilib. Həmin adın daşıyıcısı olan uşağın hansı təbiətdə olması, orta təhsilini başa çatdırandan sonra həyatda kim olacağı haqda düşüncələri gündəmə gətirilir. Şeirlərin sonluğunda hərflər və adlarla əlaqəli suallar, yaxud tapşırıqlar

da verilir ki, bütün bunlar azyaşlının dünyagörüşünün genişlənməsinə, iti düşünmə qabiliyyətinin formalaşmasına xidmət edən xüsusatlardır.

"Bir ad bir şeir" yarımbaşlığı altında qruplaşdırılan şeirlər əsasən dörd misradan ibarət olub birbəndlik şeirlərdir. Məsələn, "Uğur", "Jalə", yaxud "Zahir". Adları çəkilən uşaqların hər biri özünəməxsus təbiətə malikdir. Müəllifin qarşıya qoyduğu məqsəd də elə budur: qəhrəmanının hansı isə bir cəhəti, yaxud məşğuliyyəti ilə oxucusunu tanış etmək.

Məsələn, "Uğur" mühəndis, "Jalə" jurnalist olmaq arzusundadır. Uğur bu arzusunu göylərlə bölüşür, Jalə isə babası ilə:

Uğur baxıb göylərə,

Dedi, usta olacam!

Uca bir qüllə tikib,

Ulduzlara çatacam!

"Jalə" şeirində isə oxuyuruq:

Jalə aldı jurnalı,

Baba, ver baxacağam!

Böyüyəndə istəsəm,

Jurnalist olacağam!

Zahir isə, öz kəlmələri ilə ifadə etsək, gəmiçi olmaq arzusundadır:

Zahir düzəltdi,

Balaca gəmi.

Dedi: - Bu gəmi,

Mən də gəmiçi.

Tədris prosesi zamanı məktəbliyə "Uğur böyüyəndə usta, yaxud mühəndis, Jalə jurnalist, Zahir gəmiçi olmaq arzusundadır, sən böyüyəndə kim olmaq, yaxud hansı sənətə yiyələnmək istəyirsən" suallarını ünvanlamaqla (şair Uğur, Jalə və Zahir obrazlarını şeiriyyət müstəvisinə gətirməklə) azyaşlı oxucusuna demək istəyir ki, heç də hamının ali təhsil alması vacib deyil, həyatda başqa peşələr, sənətlər də var.

Təqdim olunan şeirin mövzusuna uyğun sualların tərtib edilməsi məktəblinin dünyagörüşünün genişlənməsinə diqqət çəkən vacib cəhətlərdən biridir. Məqamı ikən xatırlamaq yerinə düşər ki, XX əsri 60-70-ci illərində ümumtəhsil məktəblərində əlavə məşğələ saatları təşkil olunardı ki, bu proqram çərçivəsində məktəblilər əlavə biliklərə yiyələnmək imkanı əldə edərdilər. "Ülkər" adlandırılan şeirdə bu anlayışı şeir mövzusu seçməklə müəllifin nəyə işarə etdiyi, Ülkər və Günəş adlarının haradan götürüldüyü, "Jalə, Damla, Şəbnəm və Yağmur" şeirində "mat qoymaq nə deməkdir" sorğusunun qoyulması, "Hümmət"dən bəhs edən şeirdə "hümmət" istilahının hansı

mәna daşıdığı, Azәrbaycanda hansı zaman kәsiyindә "Hümmәt" adında tәşkilat olduğu vә bu tәşkilatın hansı mәqsәdlәrә xidmәt göstәrdiyi (vә s.) şagirdin әlavә bilgi әldә etmәsinә, nәticә etibarı ilә dünyagörüşünü genişlәndirmәyә yönәlmiş imkanlardır.

Hümmәtin beş yaşı var,

Hazırcavab uşaqdır.

Hәvәsi var yazmağa,

Oxumaqda qoçaqdır.

Şeirin sonunda mәktәbliyә "Hümmәt" kәlmәsinә uyarlığı yetәn suallar ünvanlanıb. Bu sualların cavablandırılması sayәsindә şagird öyrәnir ki, "Hümmәt" sözü "cәhd", "sәy", "qeyrәt", "әl-әlә verib çalışmaq", "tәşәbbüs" mәnalarını verir. "Hümmәt etmәk" kömәk etmәk, yardım etmәk, әlindәn tutmaq anlamlarında işlәnir. "Hümmәt" sözü vasitәsilә şagird başqa informasiya da әldә etmәk imkanı qazanır. Mәlum olur ki, 1904-cü ildә Mәhәmmәd Әmin Rәsulzadә vә onun dostları tәrәfindәn "Hümmәt" Sosial-Demokrat Müsәlman Tәşkilatı yaradılıb. Tәşkilatın rәhbәri әvvәlcә M.Ә.Rәsulzadә olub, sonra Nәriman Nәrimanov. Bundan әlavә, tәşkilatın "Hümmәt" adında qәzeti dә çıxıb. İlk nömrәsi 1904-cü ilin oktyabrında nәşr olunub. Qәzetin cәmi 6 nömrәsi işıq üzü görüb. Qәzet 1905-ci lin fevralında bağlanıb...

Ədəbiyyatşünasların ümumi qənaətinə görə, qafiyə şeirin gözəlliyini artıran, poetik nümunəyə musiqilik, oynaqlıq, rövnəqlik gətirən vasitə, Rafiq Yusifoğluya görə, hər hansı fikri ifadə edən misraların bədii, emosional təsirini artıran, poetik əsəri zənginləşdirən bədii ünsürdür. “Qafiyə şeirin məzmununun açılmasını, bədii-məntiqi və obrazlılığın güclənməsini şərtləndirir” [2. s.222]. Bu məzmunda “Ağıllı Gülər” şeirində “sərçəcik”, “cik-cik” təkrar səsləri diqqət çəkir. Müəllif “sərçəcik” (4 dəfə) və “cik-cik” (4 dəfə) epiforalarından istifadə etməklə şeiri emosional tələffüz axarına salmış, təkrar yox, təkrir sayəsində yaranan ritm, intonasiya və bunların ahəngindən formalaşan ümumi ahəng təqdim olunan əsərə poetiklik bəxş etmiş, oxucunun (burada məktəblinin) yaddaşına asanlıqla “yazılmasına” yardımçı olmuşdur.

Bizim balaca Gülər,

Həm ağlayar, həm gülər.

Günlərin bir günündə,

Soyuq qış səhərində,

Gülər çölə çıxanda,

Əl-üzünü yuyanda

Gördü kiçik sərçəcik.

Sərçə edirdi “cik-cik”.

Gördü üşüyür sərçə,

Bayırda qalıb təkcə.

Gülər istədi getsin,

Gedib çörək gətirsin.

Elə bu an sərçəcik,

Yenə elədi:

“Cik-cik”.

Gülər tez evə qaçıb,

Anadan çörək alıb

Gəlib eyvana, ovdu.

Yanına su da qoydu.

Yenidən  edib cik-cik,

Ora qondu sərçəcik.

Əvvəl çörəyi yedi,

Sonra da suyu içdi.

Bir dəfə sağa baxdı,

Bir dəfə sola baxdı.

Təşəkkür etdi:

“Cik-cik”

Uçub getdi sərçəcik.

***

**Nəticə:** Z.Ustacın uşaq şeirləri haqda son olaraq bu qənaətə gəlmək olar ki, nədən, yaxud kimdən yazmasından asılı olmayaraq təqdim etdikləri yeni görünür, diqqətə çatdırılanlar təbiidir, səmimidir, ürəyəyatımlıdır, obrazlar elə xarakterizə olunur ki, onlar haqqında deyilənlərin həqiqət olduğuna şəkk-şübhən qalmır. Bunun bir səbəbi əgər yazıçının intellektidən irəli gəlirsə, digər səbəbi müəllifin ixtisas, peşə yönümü ilə izah oluna bilər. Axı Zaur Ustac müəllimdir, uşaq dünyasına hamıdan çox bələdliyi yetən bir ixtisas sahibi.

## Ədəbiyyat siyahısı:


1. Əlimirzəyev Xalid. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları. Bakı-“Elm və təhsil” 2011, 416 səh.

2. Hacıyev Abbas. Ədəbiyyatşünaslığın əsasları. Bakı-2009, 370 səh.

3. İbrahimov Mirzə. Ədəbi qeydlər. Bakı-Azərbaycan Dövlət nəşriyyatı-1970, 300 səh.

4. Ustac Zaur. Gülüzənin şeirləri. Bakı-2021, 114 səh**.**

**Ayətxan Ziyad (İsgəndərov)**

*Azərbaycan Yazıçılar*

*və Jurnalistlər birliklərinin üzvü,*

*yazıçı-jurnalist, tədqiqatçı.*



**Aydın Xan Əbilov**

# Gələcəyi - indiki tarixi şifrələnən fantastik pyes

## *(ədəbi tənqid)*

Ədəbiyyatşünaslar, tənqidçilər, filosoflar, kulturoloqlar uzun müddətdir ciddi bir filoloji problem ətrafında böyük müzakirələr, ədəbi polemikalar aparırlar: fantastik ədəbiyyat deyəndə hansı əsərlər nəzərdə tutulmalıdır? Ümumiyyətlə, fantastika nəyə deyilir? Fransız fantastı Jül Vernin dövründə fantastikanı ya əyləncə ədəbiyyatı, ya macəra əsərlər, ya da elmi-kütləvi ədəbiyyat hesab edirdilər. XIX-XX yüzilliklərdə ədəbiyyatsevərlər, hətta bir çox filoloqlar belə hesab edirdilər ki, bu növ əsərlərin əsas vəzifəsi elm və texnikanın ən dəyərli, yeni nailiyyətlərini geniş oxucu kütləsinə tanıtdırmaqdır. Əlbəttə, son üç-dörd əsri bəşəriyyətin maarifçilik erası qəbul etsək, bu fikirdə, müəyyən mənada, həqiqət var. Amma müasir dünya söz sənətinin böyük bir qolunu təşkil edən, geniş ədəbi-estetik, kulturoloji-fəlsəfi yükü olan bir ədəbiyyat növünün ədəbi-mədəni mənasını məhdudlaşdırmağa ehtiyac yoxdur.

Fantastik əsərlərlə bağlı araşdırmalar apararkən maraqlı tarixi-filoloji faktlarla rastlaşmaq mümkündür. Məsələn,

fantastik əsərlər yaratmaq üçün ötən əsrin iyirminci illərində Amerika Birləşmiş Ştatları vətəndaşı, fantast Hüqo Hersbekin təklif etdiyi "resept" - 75 faiz elm və 25 faiz ədəbiyyat - indi mütəxəssislərə tarixi-ədəbi zarafat kimi görünə bilər. Lakin fantastikaya bu cür baxış (yəni texnisizmi bədiiliyin əsas meyarı kimi götürmək) ona gətirib çıxarmışdı ki, XX əsrin əllinci illərinə qədər fantastik əsərlər ciddi ədəbiyyat nümunəsi hesab edilmirdi. Hətta belə bir fikir mövcud idi: fantastikanın kütləviliyi ancaq onun proqnozlaşdırıcı xüsusiyyətlərindən irəli gəlir.

Doğrudan da, vaxtilə - elə yaşadığımız günlərdə də - görkəmli fantast-yazıçılar elm və texnikaya aid çoxlu proqnozlar verib, yeni-yeni fərziyyələr, qabaqcıl ideyalar irəli sürüblər. Zaman keçdikcə bu ideyaların əksər hissəsi gerçəkləşir. Misal kimi nümunələr də göstərmək olar: sualtı qayıq (J.Vern), lazer şüası (A.Tolstoy), televiziya (Robid), atom enerjisi (H.Uels) və s. və i.a.

Ədəbiyyatşünasların tədqiqatlarına görə, Jül Vernin 108 fantastik ideyasından yalnız 10-u gələcəkdən yazan fantastlar da futuroloq və proqnozçuların yararlandıqları metodlara müraciət edirlər: modelləşdirmə, ekstrapolyasiya (müəyyən bir sahəyə, dövrə aid olan məfhumların, yaxud hadisələrin başqa sahəyə, dövrə şamil edilməsi) və analoji metod. Lakin futuroloqlar və proqnozçular yoxlama, həm də sübutlara əsaslanan elmi araşdırmalara, yəni kəmiyyət-fakt amillərinə arxalanırlar. Fantastikanın isə, xüsusilə də onun bir forması olan elmi fantastikanın üstünlüyü ondadır ki, o, keyfiyyət amillərinə, insanın və cəmiyyətin həyatındakı sosial-fəlsəfi, mənəvi-psixoloji, mədəni-texnoloji, ictimai-kulturoloji dəyişikliklərə əsaslanır.

Fantastika - vaxtilə kosmik eranın gəlişini tezləşdirərək oxucunu qarşıda gələn kosmik era ilə - planetlərarası uçuşlarla tanış edir, bu bəşəri hadisəyə insanları hazırlaşdırırdı. Televiziya, kompüter texnologiyaları, qlobal və lokal informasiya informasiya şəbəkələrindən, məsələn, İnternetdən tutmuş, ta mobil rabitə vasitələrinə qədər hər bir texniki yenilik ilk öncə fantastların təxəyyül məhsulu nəticəsində - ideya şəklində yaranmışdır: daha sonralar isə onların ixtira edilməsi faktları dediklərimizə əyani sübutdur. Ancaq bütün bunlar heç də onu göstərmir ki, fantastik əsərlərin müəllifləri "çertyojlarla", "rəqəmlərlə" işləyirlər. Elmin müxtəlif sahələri ilə yaxından tanış olan fantastlar alim deyil, ilk növbədə, yaradıcı sənətkar, başqa sözlə, həyatın söz formasını yazan yazıçılar sayılır. Fantastika, xüsusən də bədii fantastika heç də elm ilə söz sənətinin "calağından" ibarət deyil, dünya ədəbiyyatının müstəqil bir qolu, həm də çoxəsrlik və zəngin ənənələrə malik bir yaradıcı fəaliyyətin istiqaməti, bədii təxəyyülün məhsuludur.

Fantastik əsərlər də bədii söz sənətinin başqa nümunələri kimi, yazıçıya imkan verir ki, müxtəlif ədəbi üsullardan istifadə etməklə, yaradıcı təxəyyülün məhsulu olan gerçəkliyin bədii formasını - ilkin sənət modelini yaratsın. Fantastik əsərləri oxuyan oxucunu hər şeydən əvvəl insan münasibətləri, fərdin cəmiyyətdə yeri və rolu, şəxsiyyətin iç dünyası, psixoloji-mənəvi aləmi, intellekt maraqlandırır.

Milli söz sənətimizdə bədii fantastikanın yalnız bir istiqaməti - elmi fantastika daha çox inkişaf edib. Onu da nəzərdən qaçırmaq olmaz ki, bu mövzuya milli filoloji elmlərimizdə yetərincə az müraciət olunub.

Dünyamızın gələcəyi, "zaman" maşınında səyahət, yerkənarı sivilizasiya nümayəndələri ilə əlaqə, başqa günəş sistemlərinə uçuşlar, özgə varlıqlar, Yer planetindən kənarda mövcud olan həyat, elmi-texniki inkişaf, qlobal - bəşəri məsələlər və başqa problemlər Azərbaycan fantastik yazıçılarını da həmişə maraqlandırıb.

Hələ XX yüzilliyin otuzuncu illərində elmi-bədii fantastikanın maraqlı nümunələrindən sayılan "Gələcək şəhər" hekayəsini (1933) qələmə alan tanınmış ədib Yusif Vəzir Çəmənzəminli əgər ötən əsrin otuzuncu illərinin siyasi repressiya qurbanı olmasaydı, bəlkə də ədəbiyyatımızda böyük bir fantastik yazıçı yetişə bilərdi. İstedadlı nasirin 1934-cü ildə yazdığı "Qızlar bulağı" romanındakı qeyri-adi elementlər bir daha onu göstərir ki, ədibin bədii fantastikaya olan marağı ötəri deyildi.

Ötən əsrin 50 və 80-ci illərində Bakıda rusdilli sovet fantastlarının böyük nümayəndələri yaşayıb-yaradırdı: Q.Altov, E.Voyekunski, İ.Milkin, R.Baxmatov, İ.Lukyanov, V.Juravlyov, V.Ostrovski, P.Amnuel, R.Leonidov, V.Karaxanov, M.İbrahimbəyov və b. Bu dövrdə həm də bədii fantastik əsərlər Azərbaycan dilinə tərcümə edilməyə başlandı. Ədəbiyyatın böyük bir qolu olan bədii fantastikaya respublikamızda maraq məhz bu amillərə görə get-gedə gücləndi. Və bu da Azərbaycan dilində yazıb-yaradan fantastların sıralarını artırdı: Anar, Elçin, Emin Mahmudov, Namiq Abdullayev, Əhməd Xaspoladov, Z.Quliyev, Hüseyn İbrahimov, Sadıq Elcanlı, Qabil Əhmədov, Vüsal Nuru və başqalarının yaradıcılığında. Əlbəttə, burada söhbət yalnız Quzey Azərbaycan ədəbiyyatından gedir. Güney Azərbaycan ədəbiyyatında

fantastikanın yeri məsələsi başqa tədqiqat mövzusu olduğuna görə, biz bu barədə məlumat yerə bilmirik: halbuki, o tayda Səməd Behrəngi kimi maraqlı ədib var.

Yazılı ədəbiyyatımızı nəzərdən keçirəndə görürük ki, söz sənətinin hər iki qolunda fantastik metodun izləri, elementləri özünü güclü göstərir. Milli ədəbiyyatşünaslıq məqalələrində qədim miflərimizdə, əfsanələrimizdə, nağıllarımızda, dastanlarımızda və hətta eposlarımızda fantastikadan, o cümlədən fantastik elementlərdən geniş istifadə edildiyi barədə müfəssəl məlumat olduğuna görə, biz bu barədə söhbət açmaq istəmirik.

Əsatir və miflərdəki ruhlar, tanrılar, danışan heyvanlar; nağıllardakı sehrli üzük, adamı gözəgörünməz edən sehrli papaq (H.Uellsin "Gözəgörünməz adam"ının izləri Şərq - Azərbaycan şifahi xalq ədəbiyyatındakı "sehrli papağ"a gedib çıxmır ki?!), uçan xalça, divlər, əjdahalar, cənnət-cəhənnəm, ilanlar padşahlığı; dastan və eposlardakı Misri qılınc, qanadlı at, əbədi həyat suyu, özüyeriyən başmaqlar, Təpəgöz və s. məgər fantastik əsərlərin təsvir vasitəsi, obrazı və mövzusu deyilmi?

XX əsrdə Azərbaycan ədəbiyyatında fantastikanın yalnız bir qolu daha geniş inkişaf etmişdi ki, o da elmi fantastika bölümünə aid idi. Məhz buna görə də milli bədii söz sənətimizdə elmi-fantastik əsərlər daha çox yazılıb-yaradılırdı.

Azərbaycan bədii fantastik nəsri barədə məlumatlar olsa da, ümumili məlumatlar verəndən sonra belə bir məntiqli sual ortaya çıxa bilər: digər ədəbi növlərdə necə deyək ki, dramaturgiyada - fantastikadan istifadə edilmişdimi? İlk

növbədə, yadımıza tanınmış Azərbaycan yazıçısı Ənvər Məmmədxanlının 1970-ci ildə yazdığı "Kəllə və qızılgül" pyesi düşür. Müəllif bu əsərin janrını feerik komediya kimi müəyyənləşdirmişdir. Fikrimizcə, müəllif "feerik" (əfsanə məzmunlu teatr tamaşası, yaxud fantastik hissələri simvollarla əvəzlənən pyes) anlayışını fantastika sözü ilə əvəz edə bilərdi. Əsəri təhlil edəndən sonra onun psixoloji-fantastik bölümün tələblərinə bütünlüklə cavab verdiyinin şahidi olduq. Onu qeyd etmək lazımdır ki, əsərin qəhrəmanının (baxmayaraq ki, o, robotdur) faciəli taleyini oxuyandan sonra müəllifin pyesin janrını komediya kimi müəyyənləşdirməsi bizim üçün bir qədər qaranlıq qaldı. fikrimizcə, yazıçı senzuranı azdırmaq məqsədilə onu elə yazmışdı. Həm də unutmaq olmaz ki, o dövrdə fantastik metodu ilə yazılmış əsərləri ciddi ədəbiyyat nümunəsi kimi qəbul etmək istəmirdilər. Ə.Məmmədxanlının bütün yaradıcılığına məxsus fəlsəfi ümumiləşdirmə və üslub ağırlığı bu pyesində də özünü göstərir.

Özü də müəllifin toxunduğu insan psixologiyası, əbədilik və azadlıq, dünya və həyat kimi problemlər əsərə psixoloji çalardan başqa, həm də fəlsəfi mənalar verir. Demək olar ki, ilk və həm də uğurlu bir fantastik dram əsəri kimi "Kəllə və qızılgül" dramı bizim ciddi marağımıza səbəb oldu.

Üçhissəli bu pyes on yeddi "röya"dan ibarətdir. Çox maraqlıdır ki, müəllif ədəbiyyatşünaslığımızda qəbul edilmiş şəkil və ya səhnə deyil, "röya" anlayışını işlətmişdi. Birinci hissənin ilk röyası Neyrokibernetika İnstitutunun laboratoriyasında elmi şuranın iclası ilə başlayır. İnstitutun üç elmi əməkdaşının - Fərid, Cahid və Rizvanın yaratdıqları Ron adlı elektron robot səhnənin yuxarısındakı ekranda kötük üstə

oturaraq əlində tutduğu insan kəlləsinin sümüyü üstündə qələmlə nə isə yazır. Layihəyə görə, Ron düşünən maşındır və o, canlı həyata qovuşmadan onun haqqında düşünməlidir. Lakin bu cansız robot elə ilk səhnədə üzünü insanlara tutub deyir:

"Düşünmək - yaratmaqdır. Yaratmaq üçünsə mən azad olmalıyam. Bu ekrandan qopub düşməliyəm. Zirzəmiyə enib beynim üzərində özüm işləməliyəm. Lakin məni süni bir zəka kimi yaradan tanrılar, mənə süni bir azadlıq verməyə qorxurlar. Tanrılarda prinsip yoxdur. Tanrılar həmişə prinsipsiz olublar..." (Ənvər Məmmədxanlı, "Seçilmiş əsərləri: II clddə", Bakı, "Yazıçı" nəş., 1985, səh.137).

Beləliklə, elə ilk epizoddan görürük ki, əsərdə böyük, həm də bəşəri xarakter daşıyan münaqişə yaranır. İnsan və yaratdığı düşünən maşın arasında münaqişə mübarizəyə çevriləcəkmi? İnsan, yaxud robot, şüur və ya elmin yaratdığı düşünən maşın, Yaradan, ya da yaradılan yaşayacaq bu dünyada?! Bu sualları elə əvvəldən ortaya atan yazıçının bəşəri məsələlərə belə həssaslıqla yanaşmasını ancaq alqışlamaq olar. Ron insanın yaratdğı ilk elektron robotlar nəslinin nümayəndəsidir. Lakin o, hələ ilk nəsil maşınlardandır. Əlbəttə, həm o dövrün, həm də zəmanəmizin oxucusu müəllifi qınaya bilər ki, dünya fantastlarının yaratdıqları bioloji robotlar az qala insanı üstələdikləri halda, nə üçün əsərin qəhrəmanının beyni əlli ton ağırlığındadır? Hələ üstəlik də böyük bir binanın zirzəmisində yerləşir, özü də bir şəhərin işlətdiyi elektrik enerjisi qədər enerjini "udur"?! Ancaq unutmaq lazım deyil ki, Ə.Məmmədxanlı elmi-tantastik əsər yazmağı qarşısına məqsəd qoymamışdı. Yazıçı insan psixologiyasının qatları, sirləri və qəribəlikləri ilə

maraqlandığına görə əsər daha çox psixoloji dram formasında qələmə alınmışdır.

Beləliklə, Ron adlı robotun beyni ondan ayrı, Neyrokibernetika İnstitutunun təcrübə laboratoriyasının yerləşdiyi binanın yekə zirzəmisində yerləşir. Yazıçı robot simasında insana, onun hiss və duyğularına, yaddaş və şüuruna, hətta sovet ideologiyasının az qala tabu qoyduğu bir məsələyə - şüuraltına (və ya Ziqmund Freydin təklif etdiyi təhtəlşüura) münasibətini, özü də cəsarətli münasibətini bildirir. Yazıçı insan psixologiyasının müxtəlif tərəflərini və elementlərini maddiləşdirərək onun dərin qatlarına varmaq istəyir. Belə ki, robotun beyninə "nitq", "düşünmək", "məntiq", "şöhrət", "özünütənqid" və başqa "bloklar"ı açıb-bağlamaqla onun "tanrı"ları olan insanlar (həm də müəllif) insan psixologiyasını öyrənməyə, göstərməyə çalışırlar. Və hardasa buna nail ola bilirlər. Gəlin, bir-bir bunları nəzərdən keçirək.

"Nə qədər ki, o, bir şey yaratmamışdır, nə isə ixtira etməmişdir, - mən onun düşündüyünə inanmayacağam..." - dramaturq, sanki institut direktorunun bu sözləri ilə oxucunun özünü düşündürməyə vadar edir. Qeyd etmək lazımdır ki, əsər sovet ideologiyasının ictimai düşüncədə və mənəviyyatda hakim mövqe tutduğu bir dövrdə yazılsa da, oxucu müəllifin sovet yazıçılarına xas olmayan bir cəsarətlə şəxsiyyət azadlığını tərənnüm etdiyini görür, həmçinin yaşadığı zamanın qayda-qanunlarına qarşı barışmaz sənətkar mövqeyi ilə rastlaşır. Gənc alim Cahidin dediyi sözlərə diqqət yetirək:

"Nə üçün onun azadlığı bizi qorxudur? Biz ona düşüncə vermişik ki, düşünməsin? Quşa qanad vermişik ki, uçmasın? Proqrama görə, o, şəxsiyyətə dönüb məhv olur...".

Əsəri oxuduqca ədəbi-fəlsəfi problemlər silsiləsinə rast gəlirik: azad düşüncə, yaradıcı şəxsiyyət və zaman, fərd və cəmiyyət, seçilmiş fərdlər, maşın və fərd, tarixə, xalq adət-ənənələrinə biganəlik, yaradan və yaradılan, nəsillər arasındakı münasibətlər, təbiət və dünya, məhəbbət və gözəllik, təklik və əbədiyyət və s.

Hər şeydən əvvəl bu əsərin yazıldığı dövrə nəzər salmaq vacibdir. Çünki bu dövrdə bəşəriyyəti maraqlandıran, hətta qorxuya salan məsələlərlə, problemlərlə tanış olmadan bu kimi müxtəlif əsərlərin əsas mənasını başa düşmək mümkün deyil. 1970-1980-ci illərdə dünya təkcə elmi-texniki inqilab deyil, həm də hərbi, siyasi, ekoloji və mənəvi böhranlar içində çabalayırdı. Bu problemlərin böyük əksəriyyəti indi də aktualdır. Baxmayaraq ki, onların bəziləri öz həllini tapıb, ancaq o zaman - XX əsrin ikinci yarısından sonra iki rəqib sistemə bölünən dünya bir neçə ümumi və xüsusi, həm də bəşəri problem qarşısında aciz qalmışdı. Elm və texnika - inkişaf məhvə doğru aparıb çıxarmır ki? Elmi-texniki inqilab ekologiyanın düşməni deyil ki? Atom təhlükəsi realdırmı? Sovet İttifaqı dünyanın inkişafına mane olmur ki? Üçüncü Dünya müharibəsi olacaqmı? "Kəllə və qızılgül" pyesi qələmə alınan vaxt bu və digər suallar hamını - tərəqqipərvər bəşəriyyətin əksər düşünən insanlarını narahat edirdi. O vaxt hətta belə bir lətifəyə oxşar məsələ də dillərdə gəzirdi: "Bir dahidən soruşurlar ki, Üçüncü Dünya müharibəsində hansı tərəf qalib gələcək? Cavab verir ki, qalibin kim olduğunu

deyə bilməz, fəqət onu dəqiq bilir ki, Dördüncü Dünya müharibəsində əsas silah daş və ağac olacaq".

Belə bir şəraitdə fantastik səhnə əsəri yazan Ə.Məmmədxanlı dünya ədəbiyyatının ən gözəl ənənələrindən istifadə edərək, onu bir ziyalı kimi narahat edən məsələlərə münasibətini bildirir. Müqayisə üçün onu da xatırlamaq yerinə düşər ki, o dövrdə bütün dünyada yaranan elmi-fantastik əsərlərdə əsas süjet xətləri bunlar idi: 1) Gələcəkdə Yer planetinin taleyi; 2) Üçüncü Dünya müharibəsi və ya atom savaşı; 3) Başqa planetdən gəlmələrin "kosmik səlib yürüşünə" qarşı ümumplanetin müdafiəsi ideyası; 4) Elmi-texniki inqilabın, xüsusən də kompüter və robot texnikasının inkişafı nəticəsində yarana bilən təhlükə, yəni insan öz yaratdıqlarının əsirinə çevrilməsi qorxusu... Bu mənada "Kəllə və qızılgül" dramı dördüncü süjet xəttinə malik psixoloji-fantastik əsərdir. Əsərə nəzər salaq. Robot Ronun tələbi ilə beyninin açarını onun azadlığını dərhal nəzarət altına alsınlar: "Yoxsa onun azadlığı bizə baha oturar, yaxud bu azadlıq onu tez qudurdar".

Yazıçı, sanki bununla ötən əsrin əllinci illərində - keçmiş sovet diktatoru İ.Stalin vəfat edəndən sonra, keçmiş SSRİ-də baş verən demokratik dəyişikliklərə, o dəyişikliklərin meydana gətirdiyi məşhur dissident hərəkatına işarə edirdi. Dramaturq düşündüklərini, hətta robot Ronun dilindən deyir: "Müəllim, mənim azadlığıma qeyri-azadlıq lazımdır?" Məlum məsələdir ki, adi bir robotun dili ilə sənətkar bu sualı zəmanəsinə verirdi, o dövrün siyasi sistemindən bunu soruşurdu. Robot ona qızılgül hədiyyə gətirən, laboratoriyada adi süpürgəçi işləyən Lumu xala ilə söhbətlərində belə, çox

ciddi, həm də fəlsəfi məsələlərə toxunur: "Ron. Gözəllik nə qədər həyəcanlı imiş...

Nəzəri olaraq mən bilirdim ki, güllər, çiçəklər hansı milyard atomların kiçik tufanıdır, amma təsəvvür eləməzdim ki, gözəllik ilə üz-üzə gələndə...".

Və ya:

"...Deyirəm, bəlkə mən o üç nəfər gənc tanrının, tanrılıq təcrübələri az tanrıların dahiyanə səhviyəm?".

Bu artıq klassik fəlsəfə deyil, fantastikanın yaratdığı texniki fəlsəfəsidir. Fikir verəndə görürük ki, yazıçı belə texniki fəlsəfədən həyat fəlsəfəsinə çox asanlıqla keçə bilir: "Ron. Lumu xala, mənim heç kəsim və ya heç nəyim yoxdur, yalnız düşünməkdən başqa... nəsillər gələcək bu dünyaya, nəsillər gedəcək bu dünyadan, mənim isə işim-gücüm yalnız düşünmək olacaq...

Lumu. Yox bala, heç kəs bu dünyada qurd ilə qiyamətə qalmayacaq. Bir də axı nəyə lazımdır, kimə lazımdır həmişə bu dünyada qalmaq? Yay deyirsənmi, yay elə haman yaydır, qış deyirsən, qış elə haman qışdır, boşboz deyirsən, vallah bozbaş elə haman bozbaşdır...".

Robotun beyninə "özünütənqid" bloku bağlayandan sonra "tarixdə ilk dəfə ağıllı bir varlıq öz ağlını bəyənmir". Bunu eşidən insanlar arasında belə bir dialoq gedir:

"Direktor. ...Bəyənmir, indidən özünü dahi hesab etsəydi, sizi axmaq vəziyyətdə qoyardı. Rizvan. İlahi, nə qədər çətin imiş Tanrı olmaq!

Direktor. Mümkün deyil Tanrı olmaq! Əgər mümkün olsaydı, göylərin bütün tanrıları bir-birinin dalınca istefaya çıxmazdılar.

Ron. Elədir, müəllim, öz yaratdıqlarından geri qalan tanrılar həmişə tərəqqiyə əngəl olublar". Əgər Tanrı tərəfindən yaradılmış insan nə isə yaradırsa, deməli, özü də allahlıq mərtəbəsinə yüksəlir. İslam və Şərq, xristian və Qərb fəlsəfəsini çox gözəl bilən, sufiliyə və hürifizmə, dialektik materializm və ateizmə yaxından bələd olan Ə.Məmmədxanlı bu səhnə əsərində fəlsəfənin bütün sahələrindən bəhrələnmişdir. Yazıçının klassik fəlsəfədən texniki fəlsəfəyə, həyat fəlsəfəsindən siyasi fəlsəfəyə necə keçdiyini biz aşağıdakı parçadan da aydın görürük: "Rizvan. Təbiət ulduzdan əvvəlki maddəni milyard ilə çalxalayandan sonra bizim beynimizi yaratdı. Amma ulduzdan əvvəlki maddəni nənəm nehrəsinə töküb bir milyon il çalxalasaydı, bu gün mənim əlimdə bundan daha kamil bir beynim olardı...".

Siyasi fəlsəfəyə və ya yazıçının yaşadığı mühitə etirazına aid isə bu parça yaxşı misaldır: "Rizvan. Nə danışırsan, Ron? Hər tərəfdə maqnitofon var, nə danışırıqsa yazılır. Xahiş edirəm, mümkün qədər idealizmdən uzaq ol!

Ron. Hərdən mən bir az düşünmək istəyəndə, sən dərhal qorxuya düşürsən.

Rizvan. Ah, Ron, elə düşün ki, xatasız olsun! Yoxsa professor bizi ittiham edər ki, sənin simanda idealist bir maşın yaratmışıq...".

Yuxarıda qeyd etdiyimiz yaradan ilə yaradılan arasındakı bəşəri problemi isə yazıçı belə göstərir:

"Ron. ...Məni quraşdırarkən, şəxsən sən nəyə doğru can atırdın?

Cahid. Həyatın adiliyindən qaçırdım. Ürəkdə həmişə sonsuz idrak yanğısı var. Anlamadığın böyük qaranlığı işıqlandırmaq arzusu... Biz çox az bilirik, Ron, amma biz çox bilməliyik... Və kainat özü bizim üçün xam materialdır, yeni bir kainat qurmaq üçün... Beş milyard il sonra bizim günəş sistemi məhv olsa belə, yenə insan düşüncəsi qalacaq və bəlkə o insan düşüncəsi yeni günəş sistemi tikintisinə başlayacaq...".

Burada dramaturq artıq rəsmi hakim sovet materialist düşüncəsindən uzaqlaşaraq idealist fəlsəfəsinə yaxınlaşır. Bəs həyatın mənasını müəllif nədə görür?

"Ron. Deyirdi həyat nədir anlamadım, amma qeyri-mümkünə inanıb yaşamaq lazımdır. Deyirdi sən getməyi bacarsaydın, Ron, mən inanardım ki, sən gəlmişdin, yaxud yox olsaydın, inanardım ki, sən vardın...".

Pyesin ən maraqlı cəhətlərindən biri də odur ki, fantastik əsər yazmasına baxmayaraq, Ə.Məmmədxanlı elm və texnikanın inkişafının insanların öz tarixi keçmişini unutmasına aparıb çıxarmasını tənqid edir. "Cəhrə" sözünü eşidən robot onun mənasını soruşanda, böyük texniki nailiyyət sahibi olan alimlər buna cavab verə bilmirlər. Deyirlər ki, gərək özləri muzeyə gedib cəhrənin nə olduğunu öyrənsinlər. Müəllif, həmçinin, insan xasiyyətindəki şöhrətpərəstlik, eqoizm və başqa bu kimi mənfi cəhətləri də tənqid edir. Robotun beyninə "eqoizm blokunu" calayan kimi o, "mən-mən" deyə

yalnız özündən danışmağa başlayır. Yaxud "şöhrət bloku" işə düşən kimi Ron xüsusi "kabinet" xəstəliyinə düşür. Ancaq süpürgəçi nəvəsinin göndərdiyi qızılgülü cansız maşına bağışlayanda o, heç nə anlamır. Sanki yazıçı bununla demək istəyir ki, məhz gözəllik hissinə malik olan insan qəlbi canlı adamı cansız və ruhsuz maşından, robotdan fərqləndirir.

Əsrlərin görüşdüyü bir zamanda həyatın axarı hansı səmtə doğru olacaq? Müəllif bu bəşəri suala cavab axtarır:

"Əfruz. Bura gəl, Cahid, ora, çölə bax, Cahid, yağış altında tək-tənha bir at gəlib rels yanında durub başını aşağı salıb. Niyə çıxıb bir yana getmir?

Cahid. Burda, bu rels yanında yolu qurtarıb Ruz, yeddi min il çapandan sonra indi bilmir hara getsin.

Əfruz. Bəşəriyyət...

Cahid. Uşaq kimi zalımdır, Ruz!".

İnsan və təbiət, insan və dünya probleminə isə dramaturqun münasibəti birmənalı deyil: "Rizvan. Mübarəkdir, Lumu xala, tamaşa eləyirəm, bu, o qocaman süpürgədir ki, min illərdən bəri bəşəriyyəti zir-zibil içində boğulmaqdan xilas eləyib, çünki bütün saysız-hesabsız canlılar içində bu dünyanı zibilləyən yeganə bir məxluq varsa, o da hamamdan çox çimməyi sevən insandır...".

Konstruktorların birinin beyninin fotoşəklini çəkib öz beynini ona oxşatmaq istəyəndə robot görür ki, beyni buna dözmür. Ron məcburiyyət qarşısında qalıb tez onu demontaj etməli olur. Robot ilə alim arasındakı dialoq isə XX əsr ilə insan arasındakı sorğu-suala bənzəyir: "Ron. Canlı beynin davam

gətirmədiyinə mənim elektron beynim davam gətirmədi. Və üstəlik demə, siz hələ məni yaradıb qurtarmamış mənimlə mübarizəyə başlamısınız. Şüurardınız min dəfə deyirmiş, sökül deyirmiş, yox ol deyirmiş!

Rizvan. Şüurardım min dəfə lənətə gəlsin, yəni mən bu qədər prinsipsizəm?

Ron. Ah, tanrılar həmişə prinsipsiz olublar. Məni yaradanda siz bilirdiniz ki, əgər düşüncə düşüncədirsə, heç vaxt xamuta gəlməyəcək və düşünən bir dəmir belə, əmrə boyun əyə bilməz.

Rizvan. Ron, bizi sənin elektron beynini canlı beynimizə dost və eyni zamanda nəcib bir rəqib kimi quraşdırmışdıq.

Ron. Elə ona görə mənim elektron beynim düşünməyə başladı ki, mən kiməm, yaxud nəyəm? Əgər mən yalnız özüm üçünəmsə, onda özüm üçün nə idim?".

Pyesin sonunda haqqında söhbət gedən Ron - əsərin "baş qəhrəman"ı olan robot özünə "texniki qəsd" etsə də, oxucuda bu intihar bədbinlik doğurmur:

"Ron. Bilirəm siz yorulmayacaqsınız. Bir halda ki, siz havanı yormursunuz, torpağı yormursunuz, suyu yormursunuz və siz axırda ulduzları da yoracaqsınız! Və beyniniz heç vaxt başa düşməyəcək ki, hər şeyi başa düşmək mümkün deyil.

Rizvan. Maşın üçün mümkün deyil, Ron. Düzdür, bizim idrakımız mühasirədədir. İfrat böyük ilə ifrat kiçik arasında. Ulduzun sonsuzluğu arasında. Amma biz bu mühasirəni qıracağıq. Biz idrakımızı bu mühasirədən çıxaracağıq. Nə dedin, fikrin, düşüncənin düşməni çox böyükdür? Elədir,

düşünməyən, böyük sonsuz kainat düşünən bu kiçik planetə kəc baxır.

Ron. Və yaşadığınızın eynidir sizin beyniniz. Dağları, dənizləri, uçurumları, qaranlıq meşələri, yeraltı zəngin filiz yataqları və bütün sairə ilə...".

Robot məhv olan zaman əlindəki kəllə ilə qızılgülü nə edəcəyini soruşanda o, kəlləni qaytarır, gülü isə əlində saxlayır: "...Qoyacağam yoxluğumun qəbri üstünə, əbədiyyətə nəğmə oxusun!" - və son sözü bu olur: - "Gördüyünüz röya sizə deyəcək ki, gözəllikdən qopan çılpaq düşüncənin başına çox bəla gələcək".

"Rizvan. ...Biz onunçün "gözəlliyi qavrayış" blokunu quraşdırıb qurtara bilməmişdik, amma elə bil bütün o saysız-hesabsız kamil blokların hamısından o yarımçıq blok daha yaxşı işləyib və elektron beyin gözəllik nədir sualına cavab tapıb.

Əfruz. Yox, Rizvançik, "gözəllik nədir" sualına gözəllik özü belə, cavab verə bilmir. Sirr bizə cavab vermir, amma bizi xoşbəxt eləyir. Bu özü bir sirdir. Və bütün dünyanın anlaşılmaz sirləri içində bizi xoşbəxt eləyən yeganə bir sirr varsa, o da yalnız gözəllikdir ki, insan ürəyini heç vaxt ondan qoparmaq olmaz!".

Doğrudan da, insan nə yaradırsa, ilk növbədə gözəllik haqqında düşünür. Ə.Məmmədxanlını da məhz insan taleyi düşündürdüyünə görə belə gözəl əsər yazmışdır.

Beləliklə, sadaladığımız ədəbi nümunələrdən də göründüyü kimi, bədii fantastika geniş araşdırma və filoloji mübahisələr tələb edən ədəbiyyatın böyük qoludur.

İlk baxışdan müasir Azərbaycan ədəbiyyatında fantastikanın yeri çox da əhəmiyyətli görünmür. Lakin insanlarda, xüsusən də gənclərdə elmə, biliyə, sənətə, həmçinin texnikaya həvəs, maraq və məhəbbət yaradan fantastik əsərlərin rolu danılmazdır. XX əsrin əksər böyük ixtiraları və texniki nailiyyətləri barədə məlumatlara ilk öncə fantastik yazarların əsərlərində rast gəlinməsi faktı da dediklərimizə əyani sübutdur. Ədəbi dilin vasitəsilə elmi anlayışların, xüsusilə də sahə terminlərinin inkişafında fantastik ədəbiyyatın, ilk növbədə isə tərcümə ədəbiyyatının xidmətləri əvəzsizdir. Dünya dillərinin bir-birinə yaxınlaşmasında, ümumişlək beynəlxalq terminlərin yaranmasında fantastik əsərlərin rolu artıq ədəbiyyatşünaslar tərəfindən qəbul edilmişdir.

Çağdaş Azərbaycan dilinin ədəbi və bədii qatında çoxlu yeni ifadələr, anlayışlar, terminlər var ki, onlar ilk əvvəl fantastik əsərlərdə işlənmişdir (kompyüter, lazer, robot və s.). Fantastik əsərlərin orta məktəb dərsliklərinə salınması müsbət nəticə verə bilər. Quru elmi dilə nisbətən bədii dillə qələmə alınmış fantastik əsərlər vasitəsilə elmin bir çox sahələri ilə tanışlıq məktəblilərin intellektual inkişafına böyük kömək edə bilər. Məsələn, riyaziyyatın, fizikanın, kimyanın, astronomiyanın, tarixin və başqa fənlərin öyrədilməsində, mənimsədilməsində kiçikhəcmli fantastik hekayələrin böyük rolu ola bilər.

Məhz buna görə də elmin, biliyin, inkişafın və texnikanın son uğurlu nailiyyətlərini, həmçinin fantastik proqnoz, ideya və fikirləri ədəbiyyata gətirən, insan ağlının ən dərinliklərində

olan informasiyanı belə üzə çıxarmağı bacaran, oxucuları heyrətləndirən fantastik ədəbiyyata xüsusi önəm və dəyər verilməlidir.

**İLKİN MƏNBƏ:** edebiyyatqazeti.az


**Aydın Xan Əbilov**

*tədqiqatçı-alim, yazıçı-kulturoloq,*

*Yeni Yazarlar və Sənətçilər İctmai Birliyinin sədri,*

*www.kitabxana.net - Milli Virtual*

*e-Kitabxananın qurucusu.*



**Faruk Habiboğlu**

**YALNIZ BİR ADAMIN TERENNÜMÜ**

Merhaba.

Siz beni tanımazsınız, adımın hiçbir önemi yok.

Ben şiir biriktiririm her gece. Kendi başıma oturur dururum gün ağarana kadar. Aklıma geldikçe dizeler, oturur şiirimi dokurum.

Bilir misiniz en çok kendime şiir yazarım. Evet kendime, kendi kendime şiir yazarım. Yani dertleşirim kendimle. Bir nevi içimi içime dökerim.

Hani insanın kendi kendisiyle konuşması gibi bir şey. İnsan kendi kendisiyle konuşur mu? Konuşur. Hem de nasıl konuşur!

Küçücük bir evde yaşıyorum. Her gece sabaha kadar, dört duvar, karşılıklı söyleşir dururuz. Evet ben şiir okurum ve duvarlar dinler beni, duvarlar! Sabaha kadar tütünle hemhal. Tütün ve şiir...

Ben yalnız bir adamım. Daha doğrusu yüreğimde hep yalnızlığı hissederim. İçim yalnızlık koğuşu. Ve çocuklarımdan uzaktayım...

Çoğu zaman gün ağarana kadar sürer bu halim. Çok denedim; bazen gecenin bir yarısında, uyumak üzere yatağa attığımda kendimi, bir süre sonra apansız hafakanlar basar beni! Bin bir korku girdabına düşer bedenim, çırpınır çırpınır dururum. Bu yaşa gelmiş adam korkar mı? Korkar. Hem de öyle bir korkar ki! O yüzden uyumak istemem; ancak gün ağardıktan sonra, güneş doğduktan sonra, belki bir nebze dinlenmek maksadıyla uykuya dalabiliyorum.

Siz yatağa uzandığınızda yastığın sert bir kaya, simsiyah bir taş olmasının ne demek olduğunu bilir misiniz? Yorganın dikenden bir örtü olması. Evet işte öyle.

Niye uyumam? Çünkü uyuyamam. İstesem de uyuyamam. Aklımda sürekli bir düşünce döngüsü. Düşünceler birbirini kovalayan yarış atları gibi beynimde. Aklım, sabaha kadar sanki bir hipodrom. Düşünürüm, düşünür dururum. En çok da o eski günleri, en çok da çocuklarımı.

Evet çocuklarım.

Tanrım Küçük oğlum babasız mı büyüyecek? Küçük oğlumun bıyıklarının terlediğini ben göremeyecek miyim?

Nasıl bir kader, nasıl bir yazgıdır bu Tanrım? Yıllar sonra, 50 yaşımdan sonra memleketimi bırakıp bu gurbet ele geldiğimden beri yalnızım,

yapayalnızım. Evet yalnızım bir başımayım tek başımayım, yek başımayım. Sadece şiirler benimle hemhal.

Ahvalim pusulasız, rotasını yitirmiş bir gemi. Okyanusun ortasında sürüklenen bir eski tekne gibi. Bu halim daha ne kadar sürecek, nice dem sürecek bu durumum, bilemiyorum. Bu yalnız günlerim, bu sabaha dek süren işkencelerim, ne kadar sürecek? Bilemiyorum. Kim bilir, belki de bu gurbet ellerde öleceğim!

Belki bu kentin sahipsizler mezarlığına gömecekler beni.

Belki cenaze törenime katılacak 4 adam bile olmayacak!

Ne bileyim?

Hani diyor ya türkü de "Gurbette ömrüm geçecek. Bir Daracık yerim de yok". Aynı beni anlatıyor, aynı beni. Kalkıp her cigara içtiğimde, bütün umutlarımın duman duman uçup gittiğini görüyorum. Tütünle beraber içim yanıyor, ömrüm yanıyor, yüreğim yanıyor. Ben yanıyorum içten içe. Sabaha dek yanıp kül oluyorum!

Sonra yeniden bir şiir oluyorum. Fuzuli mısralar dökülüyor dilimden. Şiir okuyorum beyaz duvarlara ve boş odaya ve taş yastığa. Hüzün dokuyorum.

Aslında kimse dinlemiyor beni, biliyorum. Ama olsun, bir ses oluyorum. Bir çığlık oluyor nefesim.

Mevsimler geçiyor. Sonbaharın son günleri. Kara kış yakın. Farkındayım, kesif karlar yağacak yüreğime. Zemheri çökecek gözlerime.

Öyle işte.

Neyleyim?

**Mehmet Faruk Habiboğlu**

*Şair, yazar.*



**Kamal Camalov**

# HİKMƏTLİ, NƏSİHƏTAMİZ VƏ MƏLAHƏTLİ ƏSƏRLƏRİ İLƏ CAHANDA ÖZÜNƏ ÖLMƏZ, ƏBƏDİ ABİDƏ UCALDAN SEYİD ƏZİM ŞİRVANİ

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Sərəncamı ilə oxunması zəruri olan kitabların siyahısında Seyid Əzim Şirvaninin "Seçilmiş əsərləri" də yer almışdır. Şairin hekayələrinə nəzər salan zaman görürük ki, kekayələrin əksəriyyəti kiçik həcmlidir; hamısı vahid bir mövzuya əxlaqi-etik məsələlərə həsr edilmişdir: hamısı bir qayda olaraq, canlı material üzərində, uşaq əhval-ruhiyyəsinə yaxın faktlar və hadisələr əsasında qurulmuşdur. Müəllif mənəvi bir ata, müdrik bir müəllim kimi gənclərə və uşaqlara namusla yaşamağın, cəmiyyət üçün faydalı olmağın, vətənə, xalqa sədaqətlə xidmət etməyin yollarını göstərir.

Seyid Əzim Şirvani nəzmlə yanaşı, bədii nəsrlə də məşğul olmuş, bu janr sahəsində də bir sıra maraqlı əsərlər yazmışdır.

Seyid Əzim Şirvaninin hekayələri içərisində ictimai mövzulara həsr edilmiş, yalançı ruhanilərin kələkbazlığını, xanların, bəylərin zülmünü, tacirlərin tamahkarlığını ifşa edən, cəhalət və nadanlığı nifrətlə damğalayan, xalqa dostu ilə düşmənini tanıdan əsərlərə fəal və tənqidi münasibət

yaradır, onların gözünü açır, hərəkətə, fəaliyyətə, mübarizəyə səsləyir. Şairin nəsri üçün xarakterik olan əsərlər didaktik-əxlaqi hekayələrdir. Bu hekayələr bizə xalq məsəllərini, hikmətamiz lətifələri və Molla Nəsrəddin lətifələrini xatırladır.

Nəsr əsərlərində şairin canlı həyata, real hadisələrə, xalq məişətinə, əmək adamlarına daha yaxından yanaşdığı, realizmə daha ciddi meyl göstərdiyi nəzərə çarpır.

Seyid Əzim Şirvaninin hekayələrini oxuyan zaman görürük ki, Seyid Əzim həm də xalq pedaqogikası ənənələri ilə yazılı ədəbiyyat ünsürlərini məharətlə birləşdirməyi bacarmışdır. Xalq pedaqogikası ilə yaxın bağlılıq şairin üslub və dilində də özünü göstərir. O, öz nəsr dilini sadələşdirmək, aydınlaşdırmaq, danışıq dilinə yaxınlaşdırmaq məqsədilə hekayələrində sual-cavablardan, nidalardan, xüsusilə xitablardan geniş istifadə etmişdir. Seyid Əzimin elə hekayələri vardır ki, bütünlükdə sual-cavab üzərində qurulmuşdur. Bunlar şair və ya yazıçının dilini konkretləşdirməklə yanaşı, ona bir şirinlik, canlılıq, ahəngdarlıq vermişdir.

Seyid Əzim hekayələrində daha çox xalq ifadələrinə, el sözlərinə, danışıq dili ünsürlərinə müraciət edir, onların zənginliyini, aydınlığını, ahəngdarlığını saxlamaq şərtilə məzmununu yaradıcı şəkildə genişləndirir, yeni mənada işlədir.

Hekayələrin bir çoxunun mövzusu xalq nağıllarından, lətifələrdən, yaxud da Şərq klassiklərinin (Əbülqasım Firdovsi, Nizami Gəncəvi, Sədi Şirazi, Əbdürrəhman Cami və b.) və rus yazıçılarının (Krılov və Dmitriyev) nəsihətamiz və ibrətamiz əsərlərindən alınmış, tərbiyəvi-əxlaqi məzmunla qiymətləndirilmişdir. Bunların

əksəriyyəti çox sadə bir süjet əsasında qurulmuşdur. Hadisə əvvəldən axıra kimi bir və yaxud iki şəxs arasında cərəyan edir. Bunların bəzilərində heç süjet də olmur. Müəllif bir hadisədən və ya bir şəxsdən danışır, demək istədiyi həkimanə və nəsihətamiz fikri sadəcə olaraq onun dili ilə verir.

Bu hekayələrin bir çoxu satirik, yumoristik xarakter daşıyır.

Qeyd etdiyimiz kimi, şairin hekayələri çox sadə, aydın bir dildə yazılmışdır. Burada biz çətin anlaşılan ərəb-fars sözünə, uzun, mürəkkəb və dolaşıq cümləyə rast gəlmirik. Seyid Əzim öz fikrini oxuculara müxtəsər, lakonik bir şəkildə çatdırmağa çalışır. Şair nədən danışırsa danışsın, hansı bir məsələyə toxunursa-toxunsun incə bir cizgi, ötərgi bir işarə ilə öz bədii niyyətini aça bilir, oxucunun fikrini təsvir obyekti ətrafında toplayıb dərindən düşündürməyə, oxuduğundan nəticə çıxarmağa vadar edə bilir.

Buna misal olaraq şairin "Sual və cavab" hekayəsinə nəzər salaq. Bu hekayədə Seyid Əzim, insanların yüksək və nəcib bəşəri borcundan – xalqa və vətənə sədaqətindən danışır. Bir gün "bir cavan bir qoca kişiyə rast gəlib sual eylədi ki, neçə yaşındasan?.. Qoca cavab verdi ki, dörd yaşında. Cavan gülüb dedi: – Ey baba, nə deyirsən, dörd yaşında kişi də belə ağsaqqal olurmu? Qoca dedi: – Bəli, mənim əzizim, dörd ildir ki, özümü və həqiqi olan xalqımı tanıdım. Qalan əyyam ki, cəhalətdə keçibdir, ömür hesab olunmaz".

Müəllif cəhalət və nadanlıqla keçən ömrü həyat hesab etmir. İnsan özünü ancaq o zaman insan saya bilər ki, dünyaya nə üçün gəldiyini, nə üçün yaşadığını, kim

olduğunu başa düşsün, öz vicdanı qarşısında həmişə məsuliyyət hiss etsin, cəmiyyətə, xalqa, vətənə namusla xidmət etməyi özünə ən müqəddəs bir vəzifə saysın. Ancaq xalqa xidmətlə keçən həyatı şərəfli həyat adlandırmaq olar. Seyid Əzimin bu qısa sual-cavabla oxucuya yetirmək istədiyi əsas fikir bundan ibarətdir.

Seyid Əzim Şirvani yaradıcılığında daha çox həyatın mənasını ancaq yeyib-içməkdə, var-dövlət toplamaqda, eyşü-işrətdə və əylənməkdə görən yalançı molla və axundlardan, bəy və xanlardan, mülkədar və tacirlərdən söz açır, onların yaramaz əməllərinə qəzəb və nifrətini göstərir.

"Xan əylənir" adlı hekayədə Seyid Əzim Şirvani oxucusunu insanlıqdan xəbəri olmayan qəddar və rəhmsiz Mustafa xan adlı biri ilə tanış edir. Əməkçi kəndlilərin hesabına firavan həyat sürən, günlərini kef məclislərində eyşü-işrətlə keçirən bu yaramaz xanın yeganə əyləncəsi yeyib-içəndən sonra avam və sadəlövh kəndliləri yanına çağırıb ələ salmaqdan, lağa qoymaqdan, onların avamlığına, sadəliyinə qəhqəhə çəkib gülməkdən, onları təhqir edib alçaltmaqdan ibarətdir.

Bir gün Mustafa xan və onun ətrafındakılar yenə də vaxtlarını xoş keçirmək, əylənmək məqsədilə avam bir kəndlini yanlarına çağırıb ələ salmağa başlayırlar. Xan, kəndliyə sual verir ki, Allah neçədir? Peyğəmbər neçədir sualı əvəzinə Allah neçədir sualına sadəlövh kəndli cavab verməkdə çox çətinlik çəkir. Bu zaman xanın arxasında duran nazir, xandan gizli əlini yuxarıya qaldırıb kəndliyə beş barmağını göstərir. Kəndli elə bilir ki, beş demək lazımdır və heç tərəddüd etmədən xana: – Allah beşdir – deyir. Xan qəhqəhə çəkib güləndən sonra kəndlinin üstünə çığırır: – Ay heyvan, nə danışırsan, necə yəni Allah beşdir?

Qorxudan boğazı qurumuş bədbəxt kəndli, xanın qəzəbindən dəhşətə gə¬lib dili-dodağı əsə-əsə səhv etdiyini və günahkar olduğunu boynuna alır, təqsiri isə xanın nazirinin boynuna yıxıb yalvara-yalvara deyir: “ – Xan, Allah sənin nazirinə bəla versin, mən on deyəcəkdim, o, beş barmağını yuxarı tutdu, onun üçün mən beş dedim. Xan Allah ondur”.

Seyid Əzim xırdaca bir dialoqla gözümüz qarşısında təkcə bir xanın, bir nazirin deyil, ümumiyyətlə, bütün zalım xanların, nazirlərin, mülkədar və bəylərin tipik surətini canlandırmağa müvəffəq olmuşdur.

Seyid Əzim Mustafa xanın zülmkarlığı və despotizmi, rəhmsizliyi və qəddarlığı fonunda, eyni zamanda, özünün kəndlilərə olan rəğbətini gizləmir. Bunu biz şairin “Talıbxan” hekayəsində tam aydınlığı ilə görürük.

Bu hekayədə təsvir olunan kəndlilər yazıçının əvvəlki hekayələrindəki avam, aciz, müti adamlar deyil. Onlar gözüaçıq, diribaş, zirək və cəsarətli adamlardır. Bu, kəndlilərdə zəif də olsa, həyata və hadisələrə tənqidi münasibət vardır. Bunlar öz ağalarından üstün olduqlarını dərk edirlər. Buna görə də onu açıqdan-açığa “barmaqlarına dolayıb” oynadırlar. Bu cür gözüaçıq və zirək kəndli surətlərinin ən parlaq nümunəsinə biz Seyid Əzimin “Nəkir və Münkər” adlı hekayəsində rast gəlirik.

Hekayənin qəhrəmanı dünya işlərindən bixəbər, sadə bir çobandır. Buna bax-mayaraq o, gözüaçıq, diribaş, cəsarətli bir adamdır. Din məddahları və yalançıları onun beynini cəhənnəm əzabı, qəbir sitəmi, Nəkir-Münkər divanı haqqındakı cəfəngiyyatla doldurub ruhən və mənən şikəst edə bilməmişlər.

Bir gün həmin çobanın vətəni Şamaxı şəhərində qəflətən bir adam ölür. Qaranlıq düşdüyü üçün ölü sahibləri onu gecə basdırmayıb, səhərə saxlamağı qərara alırlar. Ancaq qabaqcadan hazırlanmış qəbirin gecə boş qalmasını dinə və şəriətə uyğun olmadığını, "muğayir" bir iş olduğunu hesab edən mollalar ölü yiyələrini məcbur edirlər ki, qəbiri boş qoymasınlar, bir gecəliyə bir adam tapıb orada yatırsınlar, həm ölünü, həm də özlərini günaha batırmasınlar.

Ölü sahibləri uzun axtarışdan sonra qəbiristan yaxınlığında qoyun otaran bir çobana rast gəlir və ona on manat verib gecəni boş qəbirdə yatmağa razı salırlar.

Çoban gecə qoyunlarını rahatlayıb qəbiristana gəlir, tapşırılan qəbiri tapıb heç bir şeydən ehtiyat etmədən qəbrə uzanır, dəyənəyini də yanına qoyur.

Çobanın heç bir zəhmət çəkmədən bir gecənin içində on manat pul qazanması şəhərin tamahkar və paxıl adamlarında həsəd hissi oyadır. Onlardan iki nəfəri bu qərara gəlir ki, gecə paltarlarını dəyişib Nəkir və Münkər sifətində qəbiristana getsinlər, çobanı qorxudub on manatı ondan qoparsınlar. Bu məqsədlə onlar gecə yarısı ağ kəfənə bürünür, əllərinə uzun bir ağac alır, ağacın başına neftlə isladılmış bir lopa keçirib qəbiristana gəlir, lopanı yandırıb çobanın yatdığı qəbiri tapır, biri qəbirin baş tərəfində, o biri isə ayaq tərəfində dayanıb uca səslə bağırırlar: "Biz Nəkir və Münkərik, hesabını ver".

Çoban qəbirdən başını qaldırıb cəsarətlə cavab verir: "Mən ölməmişəm, mən bir nəfər çobanam, mənə on manat pul veriblər ki, mən bu gecəlik bu qəbirdə yatam; hələ ölən sabah gələcək, gedin, sabah gəlin". Lotular əldə tutduqları lopaları silkələyib çobana vurur və yenə deyirlər: "Mən

rəbbikə?" (Allahın kimdir – K.C.). Çoban çox yalvardı ki mən ölməmişəm, qulaq asmayıb çobanı lopa ilə vurdular".

Yalvarışlarının lotulara təsir etmədiyini görən və onların kötəyinə davam gətirə bilməyən çoban yerindən sıçrayıb dəyənəyini qapır, həriflərin üstünə atılıb birinin başını dağıdır. O biri məsələnin belə ciddi şəkil aldığını görüb şəhərə tərəf qaçmağa başlayır, özünü şəhərə yetirib meyit olan evin yanındakı xaraba hamama soxulur. Çoban ondan əl çəkməyib dalınca düşür. Hamama çatanda fəryad eləyir ki, "ay camaat, bir çıraq gətirin! Çobanın sədasına xalq cəm oldular, gördülər həmin çobandır ki, on manat pul alıb qəbirdə yatmışdır. Dedilər ki, ay çoban, nə var?.. Dedi ki, Münkər ilə Nəkir səhv edib məni ölən bilib, qəbiristana gəlib məndən bir para sözlər xəbər aldılar. Nə qədər mən onlara dedim ki, mən ölməmişəm, diriyəm, hələ meyit sabah gələcək, qanmadılar. Əllərində olan kürzi-atəşin ilə məni vurdular. Mən qəbirdən qalxıb Münkərin kəlləsindən bir dəyənək vurmuşam, beyni dağılıb, ölübdür. Amma Nəkir zəbi-şəstimi görüb qaçdı. Onu qova-qova salmışam bu xarabaya. Allah xatirinə, bir çıraq gətirin, əgər onu da öldürsəm, dəxi qəbirdə ölənlərimiz rahat yatarlar, Münkər və Nəkirin şərindən səlamət olarlar".

Camaat əvvəlcə çobana inanmır, elə bilirlər ki, onu qara basıb. Ertəsi gün qəbiristana gələndə, doğrudan da, bir nəfərin öldüyünü görür, onun və yoldaşının kim olduğunu tanıyır, gecə qəbiristana nə üçün gəldiklərinin mənasını başa düşürlər.

Mövzusu canlı həyatdan, real hadisələrdən alınmış bu maraqlı, ibrətamiz hekayədə Seyid Əzim cəsur və bacarıqlı çobanı Nəkir-Münkər adı gələndə yüz dəfə salavat çevirən gözü bağlı, avam cəhalətpərəstlərə qarşı

qoymuşdur. Xalqın yoxsul və əməkçi təbəqələrini təmsil edən çoban, əsərdə dərin rəğbət hissilə qələmə alınmışdır.

Yaşadığı zəmanədə sənət adamlarının şərəf və ləyaqətini ucuz tutanlar da Seyid Əzim Şirvaninin tənqidindən yayına bilməmişlər, öldürücü satira atəşinə məruz qalmışlar. Təəssübkeş ruhanilərə, kütbeyin tacirlərə nifrətini yazıçı "Şair və dövlətli" hekayəsində ifadə etmişdir.

Beş-altı cümlədən ibarət olan bu hekayədə Seyid Əzim hazırcavab bir şairlə cahil bir tacirin söhbətini qələmə alır: "Bir hazırcavab olan şair bir təvangərin yanına gəldi. Elə yavuq oturdu ki, şair ilə təvangərin arasında bir vəcəb (qarış) yer qaldı. Təvangər bu səbəbdən bərhəm oldu, qaş-qabağını töküb, üzünü turşudub şairə dedi ki, sənin ilə eşşək arasında nə qədər məsafə var? Şair dedi ki, bir qarış. Təvangər şərmnak oldu (utandı – K.C.)".

Əziz oxucu! Şairin hekayələrində bəzən "təvangər", "gürzi-atəşin", "məğzisər", "şərmnak" və sairə kimi qəliz sözlərə rast gələcəksiniz. Ancaq belə sözləri şair, əvvəla, seyrək hallarda işlədir, sonra isə elə tərkib daxilində verir ki, oxucu onları çətinlik çəkmədən başa düşür.

Doğrudur, Seyid Əzim Şirvani nəsrində dövrün ictimai cəhətdən vacib və təxirəsalınmaz məsələləri qoyulmur, yeni və müasir problemlər irəli sürülmür. Ancaq şair öz yaradıcılıq fəaliyyəti ilə nəsr janrını yenidən canlandırmağa çalışmış, mövcud nəsr əsərlərini özünəməxsus bir yolla davam etdirərək onun gələcək inkişafı üçün müvafiq zəmin hazırlamışdır.

Sonda qeyd edək ki, dərin və geniş biliyə malik Seyid Əzim Şirvani Şərq aristotelçiliyinin tanınmış bir nümayəndəsidir. Seyid Əzim yaradıcılığı boyu əqlin və

idrakın qüvvəsinə inanmış, cəhalətə qarşı tənqidi münasibətini rəngbərəng yaradıcılıq məharətilə tərənnüm etmiş, hikmətli, nəsihətamiz və məlahətli əsərləri ilə cahanda özünə ölməz, əbədi abidə ucaltmışdır. Necə ki, özü də gözəl demişdir:

**Mövti-cismani ilə sanma mənim ölməyimi,**
**Seyyida, ölmərəm, aləmdə səsim var mənim.**


**Kamal CAMALOV**

*Naxçıvan Müəllimlər İnstitutu,*
*pedaqogika elmləri doktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi,*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*



*Araz Şəhrili “Səfəvilər: paralellər, ehtimallar, həqiqətlər…”*

Azərbaycan Respublikasından minlərlə kilometr uzaqda, Cənubi Asiyada, Himalay dağının ətəklərində yerləşən Nepal dünyanın ən sirli ölkələrindən biridir. Bu yazımız həmin sirlərdən biri barəsindədir.

Nepal buddizmin əfsanəvi yaradıcısı Qautama Budda Şakyamuninin vətəni hesab olunur. Ehtimala görə, Qautama Budda e.ə. VI əsrdə yaşamışdır.

Nepalın 77 rayonundan birinin adı Salyandır. Ümumiyyətlə isə, Nepalda Salyan adlı iki şəhər, bir rayon, dörd kənd və bir göl vardır. Daha maraqlısı odur ki, Nepaldakı Salyan şəhərindən təxminən 50 km aralıda Banke adlı rayon yerləşir.

Nepalın Salyan rayonunda yaşayan əsas etnik qruplarından biri maqarlardır. Maqarlar Nepalın ən döyüşkən xalqı sayılır. İnduist və buddist olsalar da, etiqadlarında qədim türk şamançılığı ilə oxşar cəhətlər mövcuddur. Güman edilir ki, maqarlar Nepala çox qədim zamanlarda hansısa uzaq bir ölkədən dini zəmində təqiblərə məruz qaldıqlarına görə köçmüşlər.

Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri Salyan şəhəridir. Salyan şəhərindən təxminən 50 km məsafədə Bankə adlı qəsəbə yerləşir.

Həm Salyan, həm də Bankə tarixən Muğan bölgəsinə aid məntəqələrdir. E.ə. VI əsrdə Muğan düzündə Midiyanın altı tayfasından biri olan maq tayfası yaşayırdı. E.ə. 522-ci ilin mart ayında Qaumata adlı bir şəxs növbəti Əhəməni şahı elan edildi. Başqa hökmdarlardan fərqli olaraq Qaumata müharibə əleyhdarı idi. Hakimiyyət başına keçən kimi hərbi əməliyyatları dayandırmış, vergiləri ləğv etmişdi. Qaumatanın ən sadiq tərəfdarları maqlar idi. E.ə. 522-ci ilin sentyabr ayında pars əyanı I Daranın başçılıq etdiyi sui-qəsdçilər Qaumatanı qətlə yetirdilər, maqları isə amansız təqiblərə məruz qoydular. E.ə. 522–520-ci illərdə Midiyada, İlamda və Parsada Qaumatanın ardıcılları ilə Daranın rəhbərlik etdiyi hərbi xunta arasında çox dəhşətli və amansız bir vətəndaş müharibəsi baş verdi. Qaumata tərəfdarlarının çoxu mübarizədə həlak oldu. Sağ qalanların isə Daranın əli çatmayacaq yerlərə köç etməkdən başqa bir əlacı yox idi.

Bəzi tarixçilər Qaumatanı ikinci Əhəməni imperatoru Qambujiyanın kiçik qardaşı ilə eyniləşdirir, digərləri isə onu midiyalı və maq hesab edirlər. Həmin fikirlərdən hansı doğrudur? Bu sualın birmənalı cavabı olmasa da, Nepalda Mediya, İlam, Parsa, Bardiya kimi yer adlarının mövcudluğu müəyyən fərziyyələr doğurur. Xatırladaq ki, Əhəmənilər imperiyasının əsas vilayətləri Midiya, İlam və Parsa olmuşdur. İkinci Əhəməni imperatorunun kiçik qardaşının adı isə Bardiya idi. Amma gəlin mülahizə yürütməyə tələsməyək… Bəlkə də bütün bunlar təsadüfi bənzərliklərdir. Əlavə edək ki, Nepalda Alban, Baku, Eriwang, Ghuskun, Ganja, Kapan, Sisakhane, Garamani, Manas, Udi, Urmi adlı yaşayış məntəqələri, rayonlar, göllər və dağlar da vardır. Lakin ola bilsin ki, bu oxşarlıqlar da hansısa təsadüflərin nəticəsidir.

Qautama və Qaumata adları bir-birinə bənzəsə də, onların sahibləri arasında kifayət qədər ciddi bir fərq vardır. Belə ki, I Daranın iddiasına

görə, Qaumatanın guya qulaqları olmamış, daha doğrusu, keçmişdə işlətdiyi hansısa cinayətə görə kəsilmiş, sui-qəsdçilər də məhz bunu öyrənərək onun şahzadə Bardiya deyil, yalançı bir maq olduğunu anlamışdılar. Qautama isə əksinə, buddist ikonalarında qeyri-adi dərəcədə iri qulaqlarla təsvir olunmuşdur. Görəsən Qautama Buddanın ardıcılları bununla nə demək istəyirlər?

**Araz Şəhrili**

*Araşdırmaçı – yazar.*



**İmran Nuri**

# AZƏRBAYCANIN TƏBİƏTİNƏ ERMƏNİLƏRİN EKOLOJİ GENOSİD SİYASƏTİ

**Elmi rəhbər:**
**Sultanov Rauf Lütfəli oğlu.**
**ADPU, biologiya elmləri doktoru, professor**

Öncə nəzərə çatdırım ki, məqalə tarixçi və ekoloq mütəxəssislərin araşdırmalarının nəticələri əsasında hazırlanmışdır.

İradəmizdən asılı olmayaraq, çox zaman "ana təbiət" ifadəsi işlədirik. Bu kəlmənin özü bir daha təsdiq edir ki, insanı təbiətdən ayrı dərk etmək olmaz, insan da təbiətin bir hissəsidir. Övlad anasını necə sevir, əzizləyir, qulluğunda durmağı özünə borc bilir, təbiəti də o qədərdə sevməyə, əzizləməyə, qulluğunda durmağa, onu qorumağa özünü borclu bilməlidir.

Ümumiyyətlə, türk dünyasında belədir, Türk övladı yaşamı boyunca bu müqəddəsliyin keşiyində durub: "Ana vətən" deyib, əsrlər boyu ona məxsus torpaq, ərazi uğrunda cihada qalxıb; "ana təbiət" deyib, onu göz bəbəyi kimi qoruyub; "ana" deyib, onu dünyaya gətirən qadına sarılıb qabağında diz çöküb, ruhunun hökmdarı bilib.

Araşdırmalara görə, dünya müharibələrinə qədər bu, belə olub. Dünya müharibələri çox müqəddəsliklərə qənim kəsildiyi kimi, bu müqəddəsliyn də başına ip atıb qədirdən-qiymətdən salıb. Müharibə amili elmin sürətli inkişafı ilə birləşəndə isə hər çərçivəni aşdığından həyəcan təbili çalınmağa başlayıb. Bu anda insanlar iki təbəqəyə bölünüblər: 1 – Təbiəti sevib onun qədrini bilən, onu hər qəsddən

mühafizə edənlər; 2 – təbiətə qəsdin insanlığın özünə qəsd olduğunu dərk etməyib əməlindən dönməyənlər.

Əsasən üzvü aləmdən bəhs edən ekologiya elmi bu zərurətdən yaranıb və "zaman-zaman həyatın zərurətindən doğan problemlərin məhsulu kimi daim inkişaf edib bir çox qollara şaxələnərək təkmilləşib, müxtəlif istiqamətlərə ayrılmışdır" [Ekologiya və kitabxanaların qarşısında duran vəzifələr. Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik tövsiyələr. Bakı – 2009, 55 səh. s.5].

İnsanların təbiətdən vəhşicəsinə istifadəsinin nəticəsi olaraq atmosferdə ozon dəliyinin əmələ gəlməsi, meşələrin qırılması, çirkab tullantılarının insanların yaşayışını və təbii tələbatını ödəmək üçün istifadə etdiyi axar sulara, çaylara və dənizlərə axıdılması, kimya zavodlarının zərərli qazlarının havaya buraxılması və bir çox digər səbəblər nəticəsində ətraf aləm, canlı və cansız təbiət güclü dəyişikliyə məruz qalmış, bir çox heyvan və bitki növlərinin kökü kəsilmiş, yaxud bu təhlükənin astanasındadır. Bəziləri isə hətta tamamilə məhv olmaq ərəfəsində olduğundan "Qırmızı kitab"a düşmüşdür. "Hazırda dünyanın bütün ölkələrində ərzaq, içməli su, zülal aclığı problemi, iqlim dəyişikliyi, demoqrafik partlayış və digər qlobal problemlər başlayıb, ekoloji tarazlığın pozulması yeyinti məhsullarını yararsız hala salıb, insanlar və heyvanlar arasında ağır müalicə olunan keçici xəstəliklər əmələ gəlib. Ona görə də insanlar təbiəti qoruyub saxlamaq üçün qlobal miqyaslı tədbirlər hazırlayıb həyata keçirməyə məcburdurlar [Ekologiya və kitabxanaların qarşısında duran vəzifələr. Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik tövsiyələr. Bakı – 2009, 55 səh. s.5].

Bu gün Azərbaycan belə bir terror aktı ilə üz-üzədir. 28 il Ernənistanın işğalı altında qalan ərazilərimiz hazırda elə bir durumdadır ki, Azərbaycan bunun qarşısının alınması üçün beynəlxalq təşkilatlara müraciət etmək məcburyyətindədir.

Tarixi həqiqət budur ki, bu ərazilər XVIII əsrin ortalarında yaranan Qarabağ xanlığı zamanından da qabaq Azərbaycanın olmuşdur. Qarabağın dünyanın ən qədim insan məskənlərindən olduğunu Füzuli şəhəri yaxınlığında yerləşən Azıx mağarasından əldə olunan tapıntılar da təsdiq edir. Məhz Azıx mağarasının

öyrənilməsindən əldə olunan qənaətlərə görə Azərbaycan “Avropanın ən qədim sakinləri” xəritəsinə daxil edilmişdir. Ermənilər isə bu torpaqlara İrandan və Osmanlı ərazilərindən deportasiya olunublar. Həm də yaxın macalda yox, XIX əsrin əvvəllərində. Rusiya imperiyasının Azərbaycan torpaqlarını işğalından sonrakı müddətdə. Ötən 2 əsr ərzində bu gün bizim “Qərbi Azərbaycan” adlandırdığımız bir sıra tarixi mahallar, 1988-1994-cü illərdə isə daha 20 faiz Azərbaycan ərazisi Ermənistanın tərəfindən işğal edilmişdir. Başqa sözlə, Azərbaycanın 1.213,7 min hektar ümumi meşə sahəsinin 264 min hektarı 28 il erməni işğalı altında olmuş, bu müddətdə sözün həqiqi mənasında Azərbaycan təbiətinə qarşı genosid siyasəti aparılmışdır.

İlkin qiymətləndirməyə görə, təkcə işğal dövrü ərzində (*may 1994-cü ildən 10 noyabr 2020-ci ildə torpaqlarımız erməni işğalından azad edilənə qədərki müddətdə*) Azərbaycana 244,4 milyard ABŞ dollarından çox ziyan dəydiyini hesablanmışlar.

Məqalədə bu məsələlərdən bəhs olunur.

Tarix təsdiq edir ki, ermənilər İrəvan, Naxçıvan və Qarabağ ərazilərinə XIX əsrin əvvəllərində Rusiya imperiyasının Azərbaycan torpaqlarını işğalından sonrakı müddətdə İrandan və Osmanlı torpaqlarından köçürülüblər. Azərbaycanın yaşının isə iki əsr deyil, çox-çox qədim tarixə malik olduğu qənaətini Füzuli şəhəri yaxınlığında yerləşən Azıx mağarasından əldə olunan tapıntılar da təsdiq edir. Məhz Azıx mağarasının öyrənilməsindən əldə olunan qənaətlərə görə, Azərbaycan “Avropanın ən qədim sakinləri” xəritəsinə daxil edilmişdir.

Bir diqqətçəkən cəhət də budur ki, bu ərazilərin azərbaycanlılara məxsus olduğunu erməni mənbələri də təsdiq edir. Belə ki, X əsrə aid erməni mənbələrində etiraf edilir ki, “Qarabağ” istilahı türk dillərində rəng bildirən “sevayçi”, yəni “qara” və “bağ” söz birləşmələrindən əmələ gəlmişdir. Vikipediyada bu anlayışın “qara rəng” anlamından savayı “sıx”, “qalın”, “böyük” və “tünd” anlamlarının da olduğu qeyd edilir. “Qarabağ” istilahının bu ərazilərə xas məxsusi özəllikləri əks etdirməsi (*“böyük bağ”, “sıx bağ”, “qalın bağ” anlamlarını ifadə etməsi*) faktı da bu ərazilərin

Azərbaycana məxsus olduğunu təsdiq edən minlərlə göstəricidən biridir. Filologiya üzrə elmlər doktoru Mirəli Seyidov da "Qarabağ" istılahının "qara" və "bağ" kəlmələrinin birləşməsindən əmələ gəldiyini qeyd edir, ancaq "qara" sözünün "başçı" və "böyük", "bağ" hissəsinin isə "xalqın bir hissəsi" sözlərindən ibarət olduğunu yazır [vikipedia.orq]. Yəni, Qarabağ Azərbaycan torpaqlarının bir hissəsidir.

Birinci Pyotrun vəsiyyətləri sırasında önəmli yer tutan Xəzəryanı dövlətlərin Rusiyanın himayəsi altına alınması siyasəti Sovet hökuməti zamanında xalqımıza qarşı daha qəddar şəkildə icra olunmuşdur: xalqın hiddətli etirazlarına baxmayaraq Sovet hökuməti 1923-cü ildə Azərbaycan ərazisində DQMV-ni formalaşdıraraq ermənilərə muxtariyyət hüququ verməklə zaman-zaman davam edən münaqişəni tarix səhnəsindən heç vaxt səngiməyəcək hala gətirmişdir.

Hələ bu hamısı deyil. İllərlə davam etdirilən işğalçılıq siyasəti nəticəsində 1994-cü ilin mayında (*Bişkek protokolu*) Atəşkəs elan olunanda artıq bu gün bizim "Qərbi Azərbaycan" adlandırdığımız tarixi Ağbaba, Şörəyel, Loru (*əksər hissəsi Dağlıq Borçalı ərazisinə düşür*) Abaran, Dərəçiçək, Göyçə, Gərnibasar, Zəngəzur, Qırxbulaq, Karbi, Pəmbək, Talin, Zəngibasar, Vedibasar, Dərələyəz, Sərdarabad mahalları (*Sərdarabad mahalının Türkiyə və Azərbaycana daxil edilən az bir hissəsi istisna olmaqla*) əsasən Ermənistan Respublikası ərazisinə qatılmış, bu azmış kimi, Sovet Sosialist Respublikaları İttifaqının özünün təsdiq etdiyi Azərbaycan torpaqlarının daha 20 faizi, başqa sözlə, Dağlıq Qarabağ Muxtar Vilayəti də (*Əsgəran, Ağdərə, Xocavənd, Şuşa rayonları və Xankəndi şəhəri*) daxil olmaqla ona bitişik 7 rayon (Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər), o cümlədən Qazax rayonunun 7 kəndi Ermənistanın işğalı altına düşmüşdü.

Tanrı Azərbaycanımıza hər özəlliyi bəxş edib. Ölkəmiz Yer kürəsinin elə bir qurşağında qərar tutub ki, dünyada mövcud olan 11 iqlim qurşağından 9-u (*quru çöllər iqlimindən ta dağ tundra iqliminə qədər*) Azərbaycan ərazisindədir. Əslində planetimizdəki 11 iqlimdən 9-nun Azərbaycanın qismətinə düşməsini şərtləndirən də elə dağlardır. Ölkəmizin şimalında Böyük Qafqaz, qərbində və

cənub-qərbində Kiçik Qafqaz, cənub-şərqində Talış dağları uzanır.

- **Böyük Qafqaz dağ sistemi**ndə Bazardüzü (4466 m.), Şahdağ (4243 m,), Tufandağ (4206 m.), Bzaryurd (4126 m.), Yarıdağ (4116 m.), Çarındağ (4079 m.), İlham zirvəsi (4042 m.), Raqdan (4020 m.) yüksəklikləri yerləşir [Jump up to: Azərbaycan Dağ zirvələri Tourism. Az];

- **Kiçik Qafqaz dağ sistemi**nin Azərbaycan ərazisindəki hissəsi Murovdağ, Qarabağ, Mıxtökən silsilələrindən, Şahdağ, Şərqi-Göyçə, Zəngəzur, Dərələyəz silsilələrinin bir hissəsindən, vulkanik Qarabağ yaylasının çox hissəsindən, Başkənd-Dəstəfur çökəkliyindən və s. ibarətdir [Jump up: Azərbaycan - Relyef Azerbaijan.az]. Kiçik Qafqaz dağ sistemində ən yüksək zirvə Qapıcıq dağıdır (3906 metr). Alagöz dağı 3865 m, Yağlıdərə dağı 3827 m, Qazangöldağ 3814 m, Sarıdərə dağı 3754 m, Gamışdağ 3724 m, Dəlidağ 3613 m, Dəvəboynu dağı 3560 m, Qoşabulaq dağı 3549 m, Kəti dağı 3437 m, Hinaldağ 3367 m, Əlincə dağı 3364 m. hündürlükdədir [Jump up to: Azərbaycan Dağ zirvələri Tourism. Az];

- **Talış dağ sistemi**nin ən hündür nöqtələri Gömürgöy (2493 m) və Qızyurdu (2433 m) zirvələridir. Talış dağları ilə Xəzər dənizi arasından Lənkəran ovalığı uzanır [Jump up to: Azərbaycan Dağ zirvələri Tourism. Az]; Bu dağlar öz ecazkar örtüyü - meşələri, təmiz və quru havası, bənzərsiz bulaqları, təbiətin "öz əlləri ilə yaratdığı" gölləri ilə tanınır. Respublikamızda meşələrin ümumi sahəsi 1213,7 min hektardır. Bunun 11,8 faizi, başqa sözlə, 1021,88 min hektarı meşə ilə örtülü sahədir [https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_me%C5%9F%C9%99l%C9%99ri].

Təəssüf ki, qeyd olunan 1213,7 min hektar ümumi meşə sahəsinin 264 min hektarı 28 il – 2020-ci il noyabrin 10-na qədər erməni işğalı altında olmuşdur. Bu illər ərzində Ağdərə və Xankəndi meşə təsərrüfatlarını əhatə edən məhsuldar fıstıq meşələri, Laçın rayonunun Şəlvə dərəsindəki qırmızı, dekorativ oduncaqlı mebel, parket üçün istifadə olunan iri gövdəli qırmızı palıd meşələri, Bəsitçay qoruğundakı möhtəşəm çinar və qoz ağacları, Kəlbəcər meşə təsərrüfatındakı mebel sənayesi üçün tayı-bərabəri olmayan ayı fındı-

ğı ağacları ermənilər tərəfindən kütləvi qırılaraq xarici ölkələrə satılır [İşğal olunmuş ərazilərimizdə milli-mədəni, ekoloji terrora son. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_me%C5%9F%C9%99l%C9%99ri.].

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 2017-ci il 27 fevral məlumatında xüsusi mühafizə olunan təbiət ərazisindən bəhs olunur. Nazirliyin məlumatına görə, respublikamızda 890 min hektar xüsusi mühafizə olunan təbiət ərazisi var ki, bunun da 42.997 hektarı erməni işğalçılarının tapdağı altında qalmışdır. Bu ərazilərdə bitən 460 növdən çox yabanı ağac və kol bitkilərindən 70-i endemik növ olub, dünyanın heç bir yerində təbii halda bitmir. Qaraçöhrə, ayıfındığı, Araz palıdı, yalanqoz, şərq çinarı, adi nar, meşə üzümü, pirkal, şümşad, Eldar şamı, adi xurma, söyüdyarpaq armud və s. növ ağaclar erməni vandalları tərəfindən məhv edilərək dünya florasının xəzinəsindən silinmək üzrədir. Məlumatda həmçinin, bu ərazilərdə "Azərbaycan Respublikasının Qırmızı Kitabı"na daxil edilmiş məməlilərin 4, quşların 8, balıqların 1, amfibiya və reptililərin 3, həşəratların 8, bitkilərin isə 27 növünün qorunduğu da qeyd olunur. Eynu zamanda, Bəsitçay Dövlət Təbiət Qoruğu, Arazboyu Dövlət Təbiət Yasaqlığı, Qaragöl Dövlət Təbiət Qoruğu, Laçın rayon Dövlət Təbiət Yasaqlığı, Qubadlı rayon Dövlət Təbiət Yasaqlığı və Daşaltı Dövlət Təbiət Yasaqlığının ərazisində olan qiymətli ağac və biomüxtəlifliyinin də talan edildiyi diqqətə çatdırılır. Nazirliyin məlumatında ermənilərin ölkəmizə vurduğu ekoloji ziyanın miqdarının təxminən 31.72 milyard manat olduğu göstərilir [Erməni işğalının vurduğu ekoloji ziyan. https://novator.az/2017/02/27/ermni-isgalinin-vurdugu-ekoloji-ziyan/].

Biosferin bir hissəsini təşkil edən meşələrimizdə müxtəlif bitki, heyvan növləri yaşayır. Unudulmamalıdır ki, bu bitki və heyvan növləri canlıların qida rasionunu təşkil edir. İşğal altında olan ərazilərimizdə çox acınacaqlı vəziyyət varanmışdır, - yazır Habil Hüseynov, - ötən 28 il Dağlıq Qarabağ və ətraf rayonlarda nəinki şəhər və kəndlərin dağıdılmasına, eyni zamanda, ərazidə bitki və heyvanlar aləminin məhvinə, bütövlükdə ekoloji tarazlığın pozulmasına səbəb olub. Bu illər ərzində Ermənistanın həyata keçirdiyi işğalçı siyasət Azərbaycan təbiətinə, bioloji müxtəlifliyə,

bütövlükdə regionun ekoloji durumuna ciddi ziyan vurmuş, ətraf mühitin deqradasiyası ilə nəticələnən fəsadlara gətirib çıxarmışdır. Məqsədyönlü aparılan siyasət nəticəsində təbii sərvətlərə, xüsusi qorunan ərazilərdəki meşələrə və bitki örtüyünə amansız divan tutulmuşdur. Respublikamızın təbiəti üçün xarakterik olan landşaftlar, yüzillik ağaclar, şəlalələr, təbii mağaralar, mədəni park nümunələri, unikal geoloji çıxıntılar, paleontoloji laylar məhv edilmişdir.

İşğal olunmuş ərazilərdə meşələrin qırılmasının bünövrəsi 1988-ci ildə Qarabağın Topxana meşəsində qiymətli ağacların vəhşicəsinə qırılması ilə qoyulub. Məsələ belə olub: Ermənistanın «Kanaker» Alüminium zavodunun rəhbərliyi Azərbaycan rəhbərliyinin rəyi ilə hesablaşmadan Topxana meşəsində qiymətli ağacları doğrayıb işçilərinə pansionat tikdirib [Hüseynov Habil. Qarabağın ekoloji harayı. "Xalq cəbhəsi" qəzeti, 1 iyul 2019-cu il].

Məqalədən məlum olur ki, meşələr yalnız hərbi məqsədlər üçün qırılmamışdır. Hərbçilərin köməyilə doğranan ağaclar hərbi texnika vasitəsilə daşınaraq tikinti materialı, mebel sənayesi və digər məqsədlərdə istifadə üçün yönləndirilmişdir.

Qazax rayonu istiqamətində, Murovdağ silsiləsi boyu, Ağdərə rayonu istiqamətində, Talış, Gülüstan, Baranbart meşələrində, Qubadlının Əyin, Hərtiz, Zor, Fərcan meşələrində 100 hektarlarla sahədə fıstıq, saqqız, şam, palıd, qoz və s. çoxillik ağaclar kəsilmişdir.

Ağdərə və Xankəndi meşə təsərrüfatlarının böyük ərazisini əhatə edən məhsuldar fıstıq meşələri, Laçın rayonunun Şəlvə dərəsindəki dekorativ oduncaqlı iri gövdəli qırmızı palıd meşələri, Bəsitçay qoruğundakı möhtəşəm çinar və qoz ağacları, Kəlbəcər meşə təsərrüfatındakı ayı fındığı ağacları Ermənistan tərəfindən kütləvi qırılaraq xarici ölkələrə satılmışdır.

Bəsitçay Dövlət Təbiət Qoruğundakı şərq çinarlarının bəzilərinin yaşı 1200-1500 ilə çatır, onların gövdələrinin diametri 4 m, hündürlüyü 54 m-dən yuxarıdır. Avropada analoqu olmayan bu nəhəng ağaclar işğalçılar tərəfindən qəddarlıqla məhv edilmişdir. Araz palıdını orada müvəqqəti məskunlaşmış ermənilər ilboyu yanacaq kimi istifadə etmişlər. Nəzarətdən kənarda qalmış, dünyada

yalnız bu ərazidə bitən endemik bir növün kütləvi şəkildə doğranmasını ekoloji genosid kimi qiymətləndirmək olar.

Ağdam rayonunun Yusifcanlı yaşayış məntəqəsinin cənub kənarı (*Ağdam rayonu təmas xətti*) meşəlik və yaşıllıq, bağ sahələri tamamilə qırılıb və məhv edilib. Novruzlu yaşayış məntəqəsinin şimal-şərq kənarındakı meşələr qırılaraq (*Ağdam rayonu*) Ermənistan Silahlı Qüvvələrinə məxsus hərbi texnikanın vasitəsilə daşınıb.

Dünya terror və korrupsiyaya qarşı "Bank-İnformasiya" Beynəlxalq Strateji Tədqiqatlar Mərkəzinin məlumatına əsaslanaraq deyə bilərik ki

"- Zəngilan rayonunun 107 ha ərazisində yerləşən qoruq demək olar ki, yer üzündən silinib, çinarlıqlar hissə-hissə İran mebel fabriklərinə və başqa tikinti-sənaye komplekslərinə satılıb;

- Ermənistanın hərbi hissələrinin qoruq ərazisinin 42 ha sahəsində yerləşdirilməsi nəticəsində ağaclar tamamilə məhv edilib;

- 2000-ci ildə 70 çinar ağacının hər biri 100 ABŞ dollarına Tehran qubernatoruna satılıb;

- 110 çinar ağacı kökündən çıxarılaraq Göyçə (Sevan) gölünün sahillərinə və Yerevan şəhərinin ətrafına köçürülüb;

- Bəsitçay qoruğunun ərazisində 1995-1997-ci illərdə 89 nəfər erməni və 136 nəfər fars vərəmdən müalicə olunub.

"Qarabağın ekoloji harayı" məqaləsindən məlum olur ki, 28 il ərzində inşa edilən qanunsuz yol tikintiləri, meşələrin kütləvi surətdə qırılması, bombardmanlar və yanğınlar nəticəsində Qazax, Tovuz, Zəngilan, Gədəbəy, Kəlbəcər, Xanlar, Qubadlı rayonlarının və DQMV-nin meşələrindən 0,5 mln-dan artıq ağac və kollar, 152 ədəd relikt ağac növləri, 13197,5 hektar qiymətli meşə sahələri, 665 hektar təbii bərpa meşələri, 75 hektar süni meşəsalma materialı, təbiət abidəsi statusu almış 5 geoloji obyekt vəhşicəsinə dağıdılmış, kommersiya məqsədləri üçün istifadə edilmişdir. Üzümlüklərin beton dirəklərindən mühəndis istehkam məqsədləri üçün istifadə edildiyindən üzümlük sahələri məhv edilmişdir [Hüseynov Habil. Qarabağın ekoloji harayı. "Xalq cəbhəsi" qəzeti, 1 iyul 2019-cu il].

İşğal altında qalan torpaqlarımızda, xüsusilə Ağdam rayonu ərazisində Ermənistandan gətirilən radioaktiv tullantıların yerləşdirilməsi 250 min hektar meşə sahəsinin nüvə tullantıları ilə

çirklənməsinə, nəticədə istifadə üçün yararsız hala düşməsinə səbəb olmuşdur.

Kəlbəcər rayonu ərazisindəki ucsuz-bucaqsız yüksək alp çəmənliklərinin tanınmaz hala salınmasını, öz mənbəyini işğal altında olan ərazilərdən götürən Xonaşen, Qar-Qar, Xaçınçay, Tərtər və Araz çaylarının ermənilər tərəfindən müxtəlif mənşəli tullantılarla və çirkab suları ilə çirkləndirilməsini də bura əlavə etsək, erməni xislətinin torpaqlarımıza hansı dərəcədə təcavüz etdiyi qismən aydın olar.

Naxçıvan Muxtar Respublikasının təbii mühitində mühüm rol oynayan Araz çayının ekoloji vəziyyəti daha acınacaqlıdır. Belə ki, Araz çayının uzun illər Ermənistan tərəfindən çirkləndirilməsi, ən dəhşətlisi isə Zod yatağından qızılın təmizlənməsi məqsədilə istifadə olunan sağlamlıq üçün təhlükəli sian qarışığının, başqa sözlə, zəhərlənmiş suyun Araz çayına axıdılması çayda yetişən 21 balıq növündən 5-nin kökünün kəsilməsinə səbəb olmuşdur.

Erməni həyasızlığı o həddə çatıb ki, Kəlbəcər rayonundakı "İstisu" mineral su bulağından doldurulub qablaşdırılan sular, guya Ermənistanın Cermuk yaşayış məntəqəsi ərazisindəki bulaqlardan doldurulduğunu əks etdirən fars dilində yazılmış etiketlərlə satışa çıxarılır.

Ermənilərin Seyidmahmudlu və Qaraxanbəyli kəndləri arasındakı yoluxucu xəstəliklərin tədqiqi ilə məşğul olan xüsusi laboratoriyadan Köndələnçay və Quruçay çaylarına tullantı şəklində axıdılan su, həmin çayların suyundan istifadə edən azərbaycanlı əhalidə dəri xəstəlikləri yaranmasına səbəb olmuşdur.

28 il işğal altında qalan torpaqlarımızdakı ümumi həcmi 631 milyon kub m tutumu olan 10 su anbarının ermənilər tərəfindən sıradan çıxarılması səbəbindən dağətəyi və aran hissədə yaşayan 400 min əhalinin həyatı və təsərrüfatı illərlə təhlükə altında olmuşdur.

Təmas xəttində yerləşən Ağdam, Füzuli, Cəbrayıl, Tərtər və Xocavənd rayonlarının əraziləri düşünülmüş şəkildə od vurularaq yandırılıb. Ermənilər tərəfindən mütəmadi olaraq törədilən yanğınlar nəticəsində 110 min hektardan çox münbit torpaq məhv edilib, ətraf mühitə və canlı təbiətə əhəmiyyətli dərəcədə ziyan vurulub. Həm də yanğınlar yalnız ermənilərin nəzarətində olan ərazilərlə

məhdudlaşmayıb, bu kimi hallar Azərbaycanın nəzarəti altında olan ərazilərdə də baş verib.

Mütəxəssislərin qənaətinə görə, tez bir zamanda qarşısı alınmasa, sağlamlıq üçün təhlükəli olan sian qarışıqlı zəhərlənmiş suyun Ermənistan tərəfindən Araz çayına axıdılması Cənubi Qafqaz Regionunda torpağın, atmosferin və ekoloji tarazlığın pozulmasına zəmin yarada, meşələrin qırılması isə həmin ərazidə ekoloji tarazlığın pozulmasına və Cənubi Qafqaz regionunda ekoloji qəzaların yaranmasına səbəb ola bilər.

***

Azərbaycan Respublikası ərazilərinin Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində itki və tələfatlarının qiymətləndirilməsi üzrə İşçi Qrupunun rəyinə əsaslanaraq deyə bilərik ki, ilkin qiymətləndirməyə görə, biomüxtəlifliyin, meşələrin məhv edilməsi, torpaqların istifadə üçün yararsız hala salınması, ətraf mühitin, o cümlədən su mənbələrinin çirkləndirilməsi və faydalı qazıntı yataqlarının talanı nəticəsində Azərbaycanın təbiətinə dəymiş ziyan işğal dövrü ərzində 244,4 milyard ABŞ dolları həcmindədir [Hüseynov Habil. Qarabağın ekoloji harayı. "Xalq cəbhəsi" qəzeti, 1 iyul 2019-cu il].

***

Sonda təbiətə düşmən kəsilən ermənilərə və erməni xislətdə olan təbiət düşmənlərinə üz tutub Amerika ekoloqu A.Leordun sözləri ilə demək istəyirik ki, Yer kürəsi əvvəli və sonu olmayan bir çaydır (Round river). İnsanlar bu axına çox ehtiyatla yanaşmalıdırlar. Unudulmamalıdır ki, yaşadığımız "Round river" məhz biz insanların əli ilə təhlükə ilə üzləşir. Bu təhlükənin sonuncu qurbanı isə bütün canlı aləm, o cümlədən insanın özü olacaq. Odur ki, təbiətə, onun sərvətlərinə münasibətimizi dəyişməliyik. Fridrix Engelsin sözləri ilə desək, təbiətdə heç nə şərti olaraq baş vermir, hər bir hadisə digərlərinə təsir göstərir və əksinə.

Unutmamalıyıq ki, Allah insanı təbiəti sevmək üçün yaratmışdır ("Avesta"dan).

Mən istəyirəm ki, - yazırdı ümummilli lider Heydər Əliyev, - hamınız təbiəti qoruyanlar olasınız. Təbiətə zərər vuranlar, ağac

kəsənlər, təbiəti çirkləndirənlər, korlayanlar cəmiyyətimizin, hamımızın düşmənidir.

**İmran Nuri**
UNEC, İqtisadiyyat fakültəsinin tələbəsi.
https://orcid.org/0000-0002-7624-2693
E-mail: qurd02@mail.ru
+994-50-501-04-03; (+994-55-945-13-85 (wp))



**Aysel Nazim**

## VAR OL, BAŞ KOMANDANIM!

Yaraşır şəninə  Sərkərdə adı,

Əzmin yenilməyən uca qaladı.

Ulu öndərimin şanlı övladı,

Var ol, millətimin Baş Komandanı !

* * *

Vətəndən güc alıb sənin qüdrətin ,

Sönməz bir ocaqdır yurd məhəbbətin .

Uca zirvələr tək əyilməz , mətin ,

Var ol, millətimin Baş Komandanı !

* * *

Heç vaxt yorulmasın döyüşən qolun ,

Yağılar olsa da sağın, həm solun .

Millətə şərəfdir müzəffər ordun,

Var ol, millətimin Baş Komandanı!

* * *

Qəlbində sevinclə döyünür Vətən .

Bu gün hünərinə öyünür Vətən .

Qələbə ətirli yoluna əhsən ,

Var ol, millətimin Baş Komandanı!

MÜBARİZ

(Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimova həsr olunur)

Əlində ucalan qeyrət bayrağı,

Çəkdi düşmənlərə dağ üstə dağı.

Adınla öyündü vətən torpağı,

Böyük hünərinə alqış, Mübariz !

* * *

Qılınca döndərdin dəyanətini,

Qırdın ümidsizlik əsarətini,

Göstərdin cahana cəsarətini,

Böyük hünərinə alqış, Mübariz !

* * *

Keçdin yurd uğrunda öz həyatından ,

Şəhidlər vətənin çıxmaz yadından

Zəfər ətri gəldi sənin adından,

Böyük hünərinə alqış , Mübariz!

**Aysel Nazim (Əliyeva)**

*Şair - pedaqoq.*

**“YAZARLAR” jurnalı N: 02 (02)**
*Fevral - 2021*

**Təsisçi və Baş redaktor**
Zaur Ustac

**FƏXRİ REDAKSİYA HEYƏTİ**
Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Lev Tolstoy, Əhməd bəy Ağaoğlu, Əbdürrəhim bəy Haqverdiyev, Cek London, Əliqulu Qəmküsar, Vintsas Kreve, Üzeyir Hacıbəyov, Pənahi Makulu, Səməd Vurğun, Şəhriyar, Bayram Bayramov, Hüseyn Arif, Bəxtiyar Vahabzadə, Cabir Novruz, İldırım Əkbəroğlu (Füzuli), Alı Mustafayev, Mustafa Müseyiboğlu, Ülvi Bünyadzadə...

**Texniki redaktor**
Tuncay Şəhrili

**Məsul katib**
Araz Şəhrili

**Ünvan:** Az – 1012, Bakı, M. Xiyabani, 14a

zauryazar@mail.ru

yazarlaraz@yandex.ru

**WWW.YAZARLAR.AZ**

**Telefon:** 430 – 14 -81 (**+994**) 70-390-39-93

Çapa imzalanıb: 05.02.2021
“Yazarlar” jurnalının redaksiyasında yığılıb səhifələnib. “El kitab çapı” mərkəzində çap olunub. Sifariş. N:19 Tiraj:100 (Elektron variant var). Qyməti: **PULSUZ.**

**2319 sayla 16/08/2007 tarixində dövlət** qeydiyyatdan keçib. **2021-ci ildən çıxır.**

**QEYDLƏR**